*Allah İman gətirən və saleh əməl sahiblərinə bağışlanmaq və böyük mükafat vədini vermişdir.*
*("Maidə" surəsi, 9-cu ayə).*

# İMAN

*"İman" mədəni, maarif müəssisəsinin nəşri*

May 2013 (Rəcəb 1434) 03 (79)



# Qəribə deyilmi ?

*- Qəribə deyilmi ki, 10 manatlıq əskinazı məsciddə sədəqə verdikdə bu məbləğ bizə çox görünür, alış-verişə xərclədikdə isə az!?*

*- Qəribə deyilmi ki, namaza və ibadətə sərf etdiyimiz 1 saatlıq müddət bizə uzun, televizor qarşısında isə qısa görünür!?*

*- Qəribə deyilmi ki, namazda fikrimizi bir yerə cəmləməkdə çətinlik çəkirik, amma dostlarımızla deyib-güləndə isə deyil!?*

*- Qəribə deyilmi ki, Qurandan 1 hissəni candərdi oxuyuruq, amma xoşladığımız roman heç əlimizdən düşmür!?*

*- Qəribə deyilmi ki, Qurandan 1 hissəni əzbərləməkdə nə qədər çətinlik çəkirik, amma edilən dedi-qoduları, müxtəlif boş məzmuna malik mahnı sözlərini isə tez yadda saxlayırıq!?*

*- Qəribə deyilmi ki, qəzetlərdə yazılanlara tez inanır, Allahın kitabı Quranda yazılanlara isə tərəddüdlə yanaşırıq!?*

*- Qəribə deyilmi ki, hamımız Cənnətə girmək istəyir, amma bunun üçün zəhmətə qatlaşmaq istəmirik!?*

*- Qəribə deyilmi ki, hər birimiz başqalarının günahlarını gördükdə hakim olur, öz günahlarımızı gördükdə isə vəkilə çevrilirik!?*

*- Qəribə deyilmi ki, müəyyən səbəblərə görə hələ ki, örtünmək imkanına malik olmayan, lakin qəlbən bunu arzulayan bacımızı "Örtünməlidir! Əks halda kafirdir!" – deyə ittiham edən müsəlmanın ailəsi Allahı tanımır!?*

*- Qəribə deyilmi ki, "Allaha qurban olum, Onun yolunda canımdan da keçərəm!!!" - deyən şəxs gündəlik ibadətlərini yerinə yetirməyə belə tənbəllik edir!?*

*- Qəribə deyilmi ki, ömrümüz boyu başqalarının hörmətini, razılığını qazanmaq üçün əlimizdən gələni edirik, Allahın razılığını qazanmağa gəldikdə isə "vaxtım yoxdur" bəhanəsilə "aradan çıxırıq"!?*

*- Qəribə deyilmi ki, məzhəb mübahisələrinə bu qədər vaxt ayıran və qabardan biz müsəlmanlar ətrafdakı böyük təhlükələri görmürük!?*

*Sizcə də qəribə deyilmi?*

# HƏZRƏT ƏLİNİN (Ə) TƏVƏLLÜDÜ

***Bağışlayan və mehriban Allahın adı ilə***

***Bu il may ayının 24-ü, sevinclə dolu günlərdən biridir. Həmin gün bəşəriyyət aləminin ilk imamı, həzrət Əli ibn Əbu Talibin (ə) doğum günüdür. O, Kəbədə dünyaya gəlib. İmamlıq məqamı onun ömür günəşinin doğması ilə başladı. O gün zülmün məğlub, ədalətin isə qalib olduğu gündür. Kəbə evi, məhz ona qucağını açdı. Allahın haqq xəlifəsi o müqəddəs məkanda dünyaya gəldi. Bir sözlə o gün bütün təqvalı insanların və möminlərin sevinc günüdür.***

***Belə bir şərəfli gün münasibəti ilə, öndə İmam Zaman (əc) olmaqla Gürcüstan müsəlmanlarını və bütün dünya müsəlmanlarını təbrik edirik.***

***"İman" mədəni, maarif müəssisəsi***

**Nəzər əhli üzü bu gün Kəbəyə,**
**Pərdədən süzülür Allahın nuru.**
**Qiblədən sıyrılır qiblənümamız,**
**Arzular çin olur, könüllər duru .**

Tarixçilərin yazdıqlarına görə həzrət Əli (ə) otuzuncu Fil ilində, rəcəb ayının on üçü, cümə günü Kəbənin daxilində görünməmiş bir şəkildə dünyaya göz açmışdır. Təhqiqatçı alim höccətül-İslam Nəyyir deyir:

**Ey Kəbə evində göz açan insan,**
**Gövhərsən, cisminin sədəfi Məkkə.**
**Kə'bədə mövludun heyrət doğurdu,**
**Haqqın evi saldı üstünə kölgə.**

Həzrətin atası Əbu-Talib ibn Əbdül-Müttəlib ibn Haşim ibn Əbdül-Mənaf, anası Fatimə binti Əsəd ibn Haşim olmuşdur. Göründüyü kimi, həzrət Əli (ə) həm ata, həm də ana tərəfdən Haşimi soyundandır. Əbu-Talibin həzrət Əlidən (ə) başqa daha üç oğlu olmuşdur: Talib, Əqil və Cəfər.

Amma həzrət Əlinin mövludu, dünyaya gəlişi o biri qardaşlarının dünyaya gəlişindən fərqli olmuşdur. Bu doğuş maraqlı və mənəvi dəyişikliklərlə müşayiət olunmuşdur. Həzrətin anası Allahpərəst olmuş və İbrahimin Hənif dinində həyat sürmüşdür. Bu qadın daim Allah dərgahına münacat etmiş və qarşıdakı doğuşun asan keçməsi üçün Allaha yalvarmışdır. Fatimə bu uşağa hamilə olduğu vaxt özünü ilahi nura qərq olmuş vəziyyətdə hiss etmiş, sanki bu körpənin başqa övladlardan fərqləndiyi barədə fələklərdən ilham almışdır.

Şeyx Səduq və Qəttal Nişapuri nəql etmişlər ki, Yezid ibn Qənəb demişdir: «Mən Abbas ibn Əbdül-Müttəlib və Əbdül-Üzza tayfasından bir qrupla Allah evinin kənarında əyləşmişdim. Əmirəl-mömininin anası Fatimə binti Əsəd doqquz aylıq körpəyə hamilə vəziyyətdə doğuş ağrısı çəkə-çəkə deyirdi: «Pərvərdigara, mən sənə, peyğəmbərlərindən gələnə, Sənin tərəfindən nazil olmuş kitablara iman gətirmişəm. Cəddim İbrahim-Xəlilin sözlərini təsdiq edirəm. Bu qədim evin bünövrəsini qoyan o olmuşdur. Səni and verirəm bu evi tikənin və bətnimdə olanın haqqına, bu doğuşu mənim üçün asan et». Yezid ibn Qənəb deyir: «Biz öz gözümüzlə Kəbə evinin arxadan yarıldığını və Fatimənin Kəbəyə daxil olduğunu gördük. Fatimə gözdən itdikdən sonra divar yenidən birləşdi. Kə'bənin qapısını açmaq istəsək də mümkün olmadı. Başa düşdük ki, bu Allahın işidir. Dörd gün sonra Fatimə qucağında Əmirəl-möminin (ə) bayıra çıxdı və dedi: «Mən keçmişdəki bütün qadınlardan üstünəm. Çünki Asiya Allaha elə bir yerdə gizlin pərəstiş edirdi ki, həmin yerdə yalnız çarəsizlikdən pərəstiş edilməsi mümkün idi. İmran qızı Məryəmi Beytül-müqəddəsdə doğuş sancısı tutduqda ona nida edilir ki, bayıra çıxsın, ibadətgahda doğuş olmaz. Mən isə Allahın evinə daxil oldum, behişt meyvələrindən yedim, bayıra çıxmaq istədikdə nida gəldi ki, ey Fatimə, onun adını «Əli» qoy. Nida gəldi ki, Əliyyul-əla Allah buyurur: «Mən ona öz adımdan götürdüyüm ad qoydum, onu öz ədəbimlə tərbiyə etdim, ona gizli elmlərimdən agahlıq verdim; odur mənim evimdə bütləri sındıran, odur evimin damında azan deyən, məni pak bilən; xoş o kəsin halına ki, onu dost tutar, ona itaət edər; vay o kəsin halına ki, onu düşmən tutar və ona müxalif olar».

Həzrət Əlinin (ə) dünyaya Kəbədə göz açmaqla qazandığı iftixar nə keçmişdə kimsəyə nəsib olub, nə də gələcəkdə nəsib olasıdır. Həzrətin dünyaya Kəbədə göz açması sünnə əhlinin də etiraf etdiyi bir həqiqətdir. Necə ki, ibn Səbbağ Maliki, «Füsulul-Mühimmə» kitabında deyir: «Həzrət Əlidən (ə) qabaq kimsə Kəbə evində dünyaya göz açmamışdı. Bu fəziləti Allah-təala yalnız Əliyə (ə) aid etmiş və bununla da xalqa onun uca məqamını göstərmişdir.»

«Biharın» 9-cu cildində Həzrətə ad qoyulması barədə



yazılmışdır: «Əbu-Talib körpəni anasından aldı, öz sinəsinə sıxdı. Fatimənin əlindən tutub Əbtəhə (Məkkə və Mina arasındakı yer) gəldi. Allah dərgahına üz tutaraq belə münacat etdi:

**Ey qaranlıq gecənin, parlaq ayın sahibi,**
**Öz hökmünü bəyan et, adlandır bu naibi.**
**Onlara cavab olaraq qeybdən nida gəldi:**
**Pak övladınızı çağırın «Əli»,**
**Allah adındandır onun təməli.**

Böyük sünni alimləri də öz kitablarında uyğun məsələyə toxunmuşlar. Məhəmməd ibn Yusif Gənci Şafei «Kifayətut-Talib» kitabında azca dəyişikliklə nəql etmişdir.

Bəzi rəvayətlərdə nəql olunur ki, Fatimə binti Əsəd körpəsi dünyaya gəldikdən sonra onun adını Heydər qoydu. Körpəni bələyib ərinə verdiyi zaman bu ad barədə məlumat verdi. Həzrət Əli (ə) Xeybər döyüşündə tanınmış yəhudi pəhləvanı Mərhəbə buyurdu:

**Anam «Heydər» qoymuş mənim adımı,**
**Bu şirin önündə duran oldumu?!**

Həzrətin adı Əli qoyulduğundan Heydər adı onun sair ləqəbləri sırasına qatıldı. Heydər, Əsədullah, Mürtəza, Əmirəl-möminin həzrətin məşhur ləqəblərindəndir. Onun künyəsi Əbül-Həsən və Əbu-Türab olmuşdur.

Rəvayətlərdə Fatimə və Əbu-Talibin Allahpərəstliyi və müsəlman olması da bildirilir. Onlar cahiliyyət dövründə də tək Allaha inanmışlar. Öz övladlarına ad vermək üçün Allah dərgahına üz tutmuş, onun əmrini gözləmişlər. Fatimə binti Əsəd həzrət Peyğəmbər üçün ana kimi olmuşdur. Fatimə həzrətə ilkin iman gətirənlərdən və Mədinəyə mühacirət edənlərdəndir. O, dünyasını dəyişdiyi vaxt həzrət Peyğəmbər (s) öz köynəyini Fatimə üçün kəfən etmiş, onun cənazəsinə namaz qılmış, qəbir sıxıntısından qurtarmaq üçün qəbrinə enmiş, ona təlqin buyurmuş və dua etmişdir.

Əbu-Talib də tək Allaha sitayiş etmiş, həzrət Peyğəmbərin besətindən sonra ona iman gətirmişdir. Qüreyşin şeyxi və rəisi olduğundan Əbu-Talib öz imanını məxfi saxlamışdır. Şeyx Səduq nəql edir ki, bir şəxs ibn-Abbasa dedi: «Ey Peyğəmbərin əmioğlusu, mənə de görüm, Əbu-Talib müsəlman oldumu?» İbn-Abbas dedi: «Müsəlman olmayan şəxs belə deyərdimi: «Məkkə müşrikləri bilirdilər ki, biz öz övladımız Məhəmmədi qəbul edirik və o, boş sözlərə etina etmir». Əbu-Talib Kəhf səhabələri kimidir. O öz imanını qəlbində gizli saxladı və zahirən müşrik kimi göründü. Allah onlara iki savab verdi. Həzrət Sadiq buyurmuşdur: «Əbu Talib Kəhf səhabələri kimidir. Qəlbində iman vardı, zahirən müşrik görünürdü. Allah ona iki mükafat verdi: Birini imanına, o birini isə təqiyyəsinə görə».

«Biharul-ənvarda» Əbu-Talibin həzrət Peyğəmbəri mədh edən şeirləri nəql olunmuşdur. Bu şeirlərin məzmunundan görünür ki, o İslamı qəbul etmişdir. Əbu-Talib həzrət Peyğəmbərə (s) xitabən deyir:

**Dəvətinlə mənə xeyir dilədin,**
**Dinlərin tacıdır gətirdiyin din.**

İmam Sadiqdən soruşdular ki, Əbu-Talibin kafir olduğu düzdürmü? Həzrət buyurdu: «Yalan deyirlər. Kafir belə deyə bilərdimi:

**Musa tək tanıdıq Məhəmmədi biz,**
**Kitablarda adı yazılmış səlis.**

Şeyx Süleyman Bəlxi «Yənabiul-məvəddət» kitabında Əbu-Talib haqqında yazır: «Qüreyşin rəisi və böyüyü olan Əbu-Talib Peyğəmbərin himayəçisi və yardımçısı idi. O, Peyğəmbəri çox sevirdi. O, həzrətin tərbiyəçisi olmuş və peyğəmbərliyini etiraf etmişdi. Əbu-Talib həzrət Peyğəmbər haqqında xeyli şe'r qoşmuşdur.

Həzrət Əlinin Kəbədə dünyaya gəlməsi Bəni-Haşim üçün böyük iftixar oldu. Ərəb və əcəm şairləri bu barədə xeyli şeir yazmışlar. Seyyid Həmirinin bu mövzuda yazılmış bir neçə misrasını xatırlayaq:

**Anası müqəddəs Kəbə evində**
**Gətirdi dünyaya oğlu Əlini.**
**Libası pakizə, özü pakizə,**
**Mövlud üçün seçdi eşq məhəllini.**

Ahlibayt.com

# *Həzrət Əlidən (ə) nəsihətli kəlamlar*

*Özünü tanıyan hər bir şəxs Allahını da tanıyar.*

*Yalan olan yerdə məhəbbət olmaz.*

*Öz qədrini bilən hər bir kimsəyə ölüm qorxulu deyil.*

*Hər bir insanın qiyməti onun etdiyi yaxşılıqlarla ölçülür.*

*Hər bir adam öz dilinin arxasında gizlənir.*

*Dili şirin olan kimsənin qardaşları çox olar.*

*Yaxşılıqla azad adamları da qul etmək olar.*

*Paxılın malına bir hadisə üz verməsi və ya vərəsəyə yetişməyə tarac olmasını müjdə ver.*

*Danışanın özünə yox, sözünə daha çox diqqət et.*

*Təkəbbürlü adamı heç kəs tərif etməz.*

*Əxlaqsız adamın şərəfi olmaz.*

*Tamahkar adam haramdan əl çəkməz.*

*Paxıl adamın rahatlığı olmaz.*

*İnsanların öz ata-babalarından zəmanələrinə daha artıq oxşarlıqları var.*

*İntiqam almaqla ağalıq (böyüklük) tutmaz.*

*Qaşqabaqlı, pis niyyətli olmaqla, ziyarət olmaz. Yəni elə ziyarətin faydası yoxdur.*

*Məsləhət etməyən kimsə, mətləbinə nail olmaz.*

*Yalançı şəxsin rəhm və mürvəti olmaz.*

*Pəhrizkarlıqdan yaxşı ləyaqət ola bilməz.*

*Tövbədən artıq şəfaətedici yoxdur.*

*Nadanlıqdan betər dərd yoxdur.*

*Ağlın azlığından betər xəstəlik olmaz.*

*Dilinə nəyi öyrətsən, sənə o şeyi qaytarar.*

*İnsan bilmədiyi şeyin düşmənidir.*

*Allah rəhmət etsin o kimsəyə ki,  öz qədrini bilib, həddini aşmaz.*

*Üzrü təkrar etmək, günahı təzələməkdir.*

*İnsanlar arasında bir kəsə nəsihət etmək, onun üçün danlaqdır.*

*Səbirsizliyin məşəqqəti səbr etməyin məşəqqətindən artıqdır.*

*Məkr və hiyləsi gizlin olan şəxs ən böyük düşməndir.*

*Lazım olmayan şeyi tələb edən şəxs lazım olan şeyi də əldə edə bilmir.*

*Qiybətə qulaq asan kimsə qiybət edənlərdən biridir.*

*Xalqdan ümidini kəsib Allaha ümidvar olan kimsə, rahat olar.*

*Həris olan kimsə naümid olar.*

*Çox zarafat edən şəxs nifrət qazanar və ya hörmətsiz olar.*

*Şəhvət qulu olan kəs satılan quldan da alçaq olar.*

*Çox adam özünün zərərinə olan şeyə can atır.*

*Ümidsizlik azadlıqdır, xahiş etmək isə qul olmaqdır.*

*Ağıllı insanın zənni də gerçək olar.*

*Baxan ibrət götürər, yəni hər kimsə ki, ruzigarın işlərinə ibrət gözü ilə nəzər edə, özü üçün nəsihət qəbul edər.*

*Ədavət qəlb üçün böyük yükdür. Yəni düşmənçilik ürəyi bütün işlərdən geri qoyar.*

*Qəlbi çətin işlərə məcbur etsən, kor olar.*

*Ədəb ağlın surətidir, yəni ədəbi olan kimsənin ağlı olar.*

*Tamahkar adamın həyası olmaz.*

*Paxıl kimsə günahsız adama da qeyzli olur.*

*Xoşbəxt o kimsədir ki,  özündən başqalarının da nəsihətinə qulaq asar.*

*Çox razılığa gəlməyin və çox ədavətin axırı ayrılıqdır.*

*Özünə çox ümidi olan kimsə istəyinə yetməz.*

*Hər bir udum suda bir əzab və hər bir loxma təamda bir qüssə var.*

*Allahın təqdiri yerinə yetən vaxtda bəndənin tədbiri itir.*

*Allahın qəzavü-qədəri gələn zaman ehtiyat eləmək fayda verməz.*

*Ehsan etmək pis niyyətli adamların dilini kəsər.*

*Şərafət elm və ədəblədir, əsl-nəcabətlə deyil.*

*Əsl-nəcabətin və şərafətin ən yaxşısı xoşxasiyyət olmaqdır.*

*Ən böyük əsl-nəcabət ədəbli olmaqdır.*

*Ehtiyacın betəri axmaqlıqdır. Yəni axmaqlıqdan betər ehtiyac olmaz.*

*Ən böyük dövlət ağıldır. Yəni ağıllı kimsə həqiqətdə möhtac deyil, bəlkə də artıq dövlətlidir.*

*Neməti tələf edən şeylərdən çəkin!Ona görə ki,  tələf olan nemətin qayıtması müşküldür.*

*Tamah olan başda ağıl olmaz.*

*Hər bir kimsənin tərbiyə üsulu yumşaq olsa, onun övlad və törəmələri tərbiyəsiz olar.*

*Ağıllı kimsənin dili ürəyinin dalında olar. Yəni ağıllı adam qabaqca sözünün yaxşı və pisini fikirləşib sonra danışar.*

*Axmaq kimsənin qəlbi dilinin dalında olur. Yəni axmaq adam qabaqca danışıb sonra fikirləşir.*

*Hər kəs ki,  öz iradəsini ciovlaya bilməsə, əcəl onu öz tərəfinə çəkər.*

*Öz nəfsinin xar və zəlil edən hər bir kimsə, tamahı özünə adət etdi.*

*Öz ehtiyacını xalqa bildirən hər bir kimsə öz zillətinə razı olar.*

*Xar etdi o kimsənin nəfsi ki, dilinə malik olmayıb, dilini özünə əmr və hakim etdi.*

*Simiclik insana ardır. Qorxu isə nöqsandır.*

*Ehtiyac bacarıqlı adamı da öz əqidəsindən döndərər və heç kəs onun sözlərinə inanmaz.*

*Malı az olan kimsə öz vilayətində qəribdir, heç kəs onu tanımaz.*

*Gözəl davranışlar (ədəblər) insana həmişə təzə zinətlərdir.*

*Ürəyi açıqlıq və üzü gülər olmaq məhəbbətin torudur ki, insanları onunla ovlamaq olar.*

*Hər bir kimsə ki, özündən razı ola, onun düşməni çox olar. Çünki,  təkəbbürlü həmişə başqalarının nəzərində zəlil olar.*

*İnsanlarla yaxşı davranın ki , bir vaxt dünyadan köç etsəniz, yaxşı sifətlərinizi yada salıb sizin üçün ağlasınlar,  yaxud qalsanız sizin tərəfdarlarınız olub sizi tərif etsinlər.*

*Ey oğul, axmaqlarla yoldaşlıq etməkdən çəkin, çünki axmaq sənə yaxşılıq etmək istəsə də, sənə ondan ancaq zərər yetişər.*

*Paxıl adamla dostluq etməkdən uzaq ol. Çünki paxıl şəxs möhtac olduğun şeyi səndən əsirgəyər.*

*Günahkar kimsə ilə yoldaş olmaqdan uzaq ol. Çünki o şəxs səni ucuz olan qiymətə satar.*

*Yalançı kimsə ilə dost olmaqdan uzaq ol. Ona görə ki, yalançının məsəli sərab (ilğım) misalındandır.  Öz yalan sözü ilə uzaq şeyləri sənə yaxın,  yaxını isə uzaq göstərər.*

*Kişinin qədər və hörməti öz səy və çalışqanlığına görədir.*

# İSLAM İNTİBAHININ QARŞISINI ALAN İKİ ZƏHƏRLİ TOXUM



**Mübarək İslam dininin tarixində bəzi ciddi məqamlar, ciddi mərhələlər olub ki, İslam elminin araşdırmaçıları gərək bu mövzulara xüsusi diqqət yetirsin. Ümumiyyətlə, dinimin tarixini bilməli olan insanlar üçün bir mərhələlər vardır ki, bunlar barəsində daha çox bilgiyə malik olmaq gərəkdir. Belə ki, tarixin bu dövrünün İslama vurduğu zərbə və ziyanlar digər dövrlərdə müşahidə edilməyib. Bu gün İslamda yaranmış yeni kəlam elminin ən aktual və ən ağrılı mövzularından biri - renessans, intibah dövrü və renessansdan sonra müsəlmanların zəifləməsinin səbəbləridir.**

### *Müşriklərin İslam Peyğəmbəri (s) ilə düşmənçiliklərinin əsası nə idi?*

Renessans və intibah dövrü nədir? Bunun bir qədər araşdırılmağa ehtiyacı var. Həzrət Peyğəmbər (s) Allahın tərəfindən vəhy yolu ilə peyğəmbərliyə məbus olur. Əziz Rəsul (s) tədricən ətrafına insanları cəmləməyə başlayır. Müşriklər Həzrət Peyğəmbərə (s) müxtəlif şirnikləndirici təkliflər edirlər ki, bütlərlə işi olmasın. Nəzərə alaq ki, bütlər orada elə-belə daşlar, sadəcə taxtalar deyildi. Əslində bütlər - insanları idarə etmək üçün vasitələr idi. Bütlər onların mənfəət, varlanma mənbəyi idi. Onlar öncədən Peyğəmbərimizlə (s) düşmən deyildilər. Onların İslam ilə xüsusi düşmənçilikləri yox idi. Sadəcə olaraq, onların istismar mənbəyi, haram mənfəətləri əldən gedirdi. Buna görə onlar əl-ayağa düşmüşdülər. İslam dininin yayılması onların gəlir mənbələrinin aradan getməsinə səbəb olurdu. Onlar qorxurdular ki, İslam gəlib onların haram yolla var-dövlət qazanmalarına mane olacaq. Bütpərəstlər məhz bu məsələlərlə müxalif idilər.

### *İnsan yetişdirmək məktəbi*

İslam dini yarandıqdan sonra Peyğəmbərimiz (s) hicrət edir. Mədinəyə hicrət etdikdən sonra İslamın böyük inkişafı başlayır. Kiçik bir müddətdə Mədinədə elə inkişaflar gedir, elə gözəllik yaranır, ümmət elə bir təkamülə gedir ki, heç kəs bunu gözləmirdi. Həzrət Peyğəmbər (s) insanlara bir hədəflə gəldiyini bildirir. Bildirir ki, mən elə bir məktəbin əsasını qoyuram ki, bu məktəbdə məqsədim insan yetişdirməkdir. Peyğəmbərlərin (ə) missiyalarını bir-biri ilə bağlayan da elə budur. Onların hamısının gəlişində məqsəd - insan yetişdirmək olub. Onların missiyasında başqa hədəf yoxdur. Vilayətin də əsl məqsədi elə bu olub. Vilayətin məqsədi insan yetişdirmək, insan tərbiyələndirməkdir. Vilayət sanki insan yetişdirən elmi akademiyadır. Peyğəmbər (s) ilk növbədə bu qarşısına qoyduğu missiyanı yerinə yetirməyə başlayır. Bir növ bağda münbit torpaq yaratmağa başlayır. Bilir ki, bu, Məkkədə alınmayacaq. Məkkədə torpaq münbit deyil. Belə bir münbit torpaq Mədinədədir. İslamın yayılması üçün bütün şəraitlər Mədinədə var. Məkkə ilə Mədinədə namazlar da fərq edir. Orada namazlar iki rükət idisə, Mədinədə artıq dörd rükət olur. Bir müddət keçir, həmin mübarək bağda gözəl güllər, çiçəklər açmağa başlayır. Artıq İslam mədəniyyəti bir həddə çatır ki, öz Əhli-beytinin (ə) yaratdığı gül-çiçəkləri müxtəlif mədəni təbliğ formalarında insanlara yetişməyə başlayır.

### *Bir əldə qılınc, bir əldə kitab ilə İslamı müdafiə edənlər*

İslamın mühüm mərhələsi başlayır. Cənab Əbuzər, cənab Salman, cənab Malik Əştər, cənab Miqdad, cənab Meysəm, cənab Əmmar kimi dəyərli səhabələr üzə çıxır. Onları saymaqla qurtarmaz. Onlar Peyğəmbərin (s) yaratdığı məktəbin ilk şagirdləri, ilk yetirmələridir. Elə bir insanlardır ki, onların bir sözü, bir cümləsi, bir rəftarı cəmiyyətdə böyük təsirlər qoyur. Onlar tərki-dünyalıqla deyil, hər şeydən çəkilib evlərində ibadətlə məşğul olmaqla deyil, açıq-aşkar İslami təbliğat, bütün İslami məsələlərin fövqündə getməklə bu dini yaşadırlar. Onlar Həzrət Əliyə (ə) baxırlar, öz həyatlarını Əmirəlmöminin (ə) səviyyəsində qururlar. Yəni bir əllərində qılınc, bir

əllərində kitab İslamı müdafiə edirlər və bir tərəfdən də evləri üçün ruzi qazanırlar.

Bir müddət də keçir. Əhli-beyt (ə) nuru imkan daxilində, insanların onu dərk edə biləcəyi miqdarda ətrafa nur saçır. Kimin ki, o qabiliyyəti, o tutumu var idi, insanlığı var idi, bu nurdan tam şəkildə bəhrələnə bildi. Tarixdə ən mübarək gözəlliklər meydana çıxırdı. Peyğəmbəri (s) görmədən ona aşiq olanlar meydana çıxır. Peyğəmbərin (s) dişi döyüşdə sınan zaman Uveys Qərani kimisi dişini tutur və əziz Rəsulun (s) dişinin sınmasını hiss edir.

## *Müsəlman ölkələrində təhsil almaq dəyər idi*

Bir mərhələ yetişir ki, elm, mədəniyyət, texnika, fəlsəfə, məntiq, tibbin sürətlə inkişafı, universitetlərin, akademiyaların açılması prosesi başlayır. Bu, elə bir vaxtda baş verir ki, Qərbin hələ ibtidai məsələlərdən xəbəri yoxdur. İslam Peyğəmbəri (s) qadına ən üstün zirvəni yenidən qaytardığı bir vaxtda, Qərbdə qadın kişinin şəxsi mülkiyyəti hesab olunurdu. Qərbdə hamam, təmizlik, təharət məsələləri demək olar ki, ən primitiv bir səviyyədə idi. O zaman ki, Qərb belə bir vəziyyətdə idi, İslam dünyasında elm, mədəniyyət sürətlə inkişaf edirdi. Elmi akademiyaların sayı günbəgün artırdı. Alimlər, şairlər, məntiqçilər, filosoflar - hamısı İslam dünyasında cəmlənmişdi. O zaman Qərbdə bütün prosesləri dərk edən insanlar İslam dünyasında təhsil almağa, elmlənməyə can atırdı. Müsəlman ölkələrində təhsil almaq dəyərə çevrilmişdi.

## *İki mədəniyyəti toqquşduranlar*

Qərb görürdü ki, əgər belə davam edəcəksə, bunun axırı onlar üçün mənfi olacaq. Qərb dünyası İslam dünyasının içərisində gedən prosesləri də yaxşı izləyirdi, boşluqları da sezə bilirdi. Nəhayət, etibarilə İslam dünyasına səlib yürüşləri başladı. Səlib yürüşlərinin əsas bəhanəsi nə oldu? Çox təəccüblü və paradoksal görünsə də o dövrdə də ilk bəhanə Fələstin oldu. Səlibçilər iddia etdilər ki, Fələstin onlarındır. Belə bir vəziyyətdə hücumlar başladı. Müsəlmanlar şücaət və ləyaqətlə bu vəziyyətlərdən o dövrdə hələ nisbətən çıxa bilirlər. Bu döyüşlərdə hələ tam məğlubiyyət olmur. (Xüsusilə də Fələstin müsəlman dünyasına geri qaytarılır). Lakin bu döyüşlər zamanı iki mədəniyyətin toqquşması baş verir. Bir tərəf inkişafın ən yüksək mərtəbəsində - bir tərəf isə cahil. Bir yana baxanda elm, mədəniyyət, təmizlik, paklıq görünür, digər tərəfə baxanda isə cəhalət, natəmizlik, tayfa savaşları görünür. Belə bir dönəmdə onların bəzi başbilənləri nə etmək barədə düşünməyə başlayırlar. Onlar ilk növbədə İslam dünyasının içərisində təfriqə salmaq qərarına gəlirlər. İkinci bir önəmli qərarları olur. Qərara gəlirlər ki, müsəlmanların başını bir qədər dünya malına qatsınlar. Belə ki, dünya malının aludəçiliyi ilə elm bir arada ola bilməyəcək. Müəyyən xətt var ki, ondan çox insan dünyaya can atsa, artıq elm də inkişaf edə bilməyəcək. Əgər dünya vasitə deyil, hədəf kimi seçiləcəksə, bu zaman nəinki elm, digər bütün məsələlər arxa planda qalmış olacaq. Bunu Qərbin başbilənləri çox yaxşı başa düşürdülər.

## *Müsəlman dünyasına səpilən iki zəhərli toxum*

Səlib yürüşlərindən sonra Qərb yavaş-yavaş İslam dünyasının kitabxanalarını ələ keçirməyə başlayır. Əndəlusda böyük İslam mədəniyyətini məhv edən səlibçilər kitabları, nüsxələri özləri ilə apardılar. Kitablarda olan bütün təcrübi nailiyyətlər, bütün mənəvi nailiyyətlərin hamısı Qərb tərəfindən mənimsənilir. Bir müddət keçir. Bunları təhlil etməyə, araşdırmağa başlayırlar. Bunun ardınca Qərb yeni şəkildə meydana çıxır. O Avropa ki, Qalileyləri, Brunoları aradan aparırdı, indi elmdən danışmağa başlayır. İslamın illər öncə etdiyi ixtiraları öz adlarına çıxarmağa başladılar. Qərb kimyadan, biologiyadan, fizikadan, fəlsəfədən danışmağa başladı. İslam dünyasında mövcud olan bütün qiymətli əsərlər onların əlinə keçdi. Etiraf etməliyik ki, onlar həmin əsərlərə müsəlman dünyasından daha layiqli sahib çıxdılar, daha diqqətlə mütaliə etdilər və daha gözəl nəticələr əldə etdilər. O gündən indiyə qədər müsəlmanlar yaşayan yerlərə iki nöqtəni daxil etdilər. Əgər biz bilsək ki, cəmiyyətimizdə mövcud olan xəstəliklərin kökü hara gedib çıxır, onu müalicə etmək də daha rahat olar. Müsəlmanların beyinlərinə daxil edilən birinci nöqtə bu oldu ki, insanlar ancaq öz talelərinə bənd olmalıdırlar. Yəni insanlara düşdükləri vəziyyətdən çıxmaları üçün yol qoyulmadı. Onların beyinlərinə yeridildi ki, əgər bir şey baş verirsə, deməli tale, qismət elədir. İndi baxırsan ki, müsəlmanın başına bir iş gəlir, deyir ki, yəqin məsləhət belədir. İnsanın düşdüyü durum, olduğu vəziyyət sırf özünün səriştəsizliyinə, özünün zəifliyinə görədir. Bunu hər hansı məsləhətə, taleyə, qismətə bağlamaq düzgün deyil. Məhz bu məsələni renessans dövrünün Qərbi, müsəlmanların beyninə yeridə bildi. İndi hətta Əhli-beyt (ə) məktəbinə baxırsan ki, əqidəsində iradə məsələsi olmasına baxmayaraq, bəzən müəyyən məsələləri qismətə bağlamaq istəyirlər.

## *Müsəlman dünyası niyə elmdə bu qədər geridədi?*

Qərbin həmin dövrdə İslam dünyasının içərisinə ata bildiyi ikinci zəhərli toxum - əxbari ruhuiyyəsidir. Özü də hər məzhəbin, hər firqənin

içərisində buna oxşar məsələlər yaratdılar. İş o yerə çatdı ki, Əhli-beyt (ə) yolçuları içərisində bir firqə yarandı ki, bunların adı “əxbariyyun” oldu. Əxbari ruhiyyəsi nə deməkdir? Əxbari ruhiyyəsi o deməkdir ki, onlar ağıla ehtiyac olmadığını iddia edirlər. “Üsulid-dində ağıl nəyə gərəkir?” Əxbari ruhiyyəsində olanlar bəyan etdilər ki, üsulid-dində gərək hədislərə təqlid olunsun. “Niyə Allah var? Niyə Qiyamət var? - Çünki Rəsulallah (s) belə deyib”. Deyirdilər ki, sən ağlını bu məsələlərdə işlətmə. Əgər Rəsulallah (s) deyibsə ki, Allah var və birdir, deməli belədir ki, var. Bu günəcən də müsəlman ölkələrinin bəziləri bilmədən elə əxbari həddindədir. Amma İslam, Əhli-beyt (ə) məktəbi bizə deyir ki, insan öz əqidə məsələlərində gərək ağlını işlətsin. Üsulid-dində, yəni tövhidə, İlahi ədlə, nübuvvətə, imamətə və məada imanda təqlid yolverilməzdir. İnsan öz ağlı ilə bu məsələlərə çatmalıdır. Üsulid-dində gərək insanın əqli dəlilləri olsun. Əxbari ruhiyyəsi müsəlmanların qanına o qədər hopdu, təhtəlşüur səviyyəsində o qədər təsir qoydu ki, müsəlmanların bütün əməlləri əxbari kimi oldu. İş o yerə çatıb ki, misal üçün səsgücləndirici icad edilib, bəzi müsəlmanlar sevinirlər ki, indi səsi beş-on adam deyil, on-iyirmi min adam eşidəcək. Bəziləri isə bildirir ki, bu barədə hədislərimizdə heç bir şey yoxdur. İkinci təbəqə bilmədən əxbari ruhiyyəsinin cəzasını çəkənlərdir. O ümmət ki, kimyanın əsasını qoyub, o ümmət ki, atom fizikasını icad edib, indi o, təyyarə adı hədislərdə gəlmədiyinə görə ona minməyi özünə caiz bilmir. Qərbin ən böyük nailiyyəti də elə bu idi ki, bu zəhərli toxumu müsəlman ümmətinin içərisinə ata bildi. Müsəlmanlar ağılı, məntiqi bir tərəfə qoymağa başladılar. Bir ümmətin övladı ki, bir şam ilə bir hamam qızdıra bilib, indi elmdə bu qədər geri qalır. Gör ümmət nə səviyyəyə qədər çatdırılıb.

## *İslam ümmətinin qarşısında duran vəzifə*

İndi müsəlman ümmətinin qarşısında duran əsas vəzifə - yaradılmış bu ətalətdən çıxmaqdır. Əgər biz yuxarıda göstərilən həmin ümmətin övladıyıqsa, biz bu vəziyyətdən çıxmalıyıq. Allaha şükürlər olsun ki, son iki əsrdə bu ruhiyyə aradan getməyə başlayıb. Böyük alimlər meydana çıxdı və bu yolun qurbanı oldular. İş o yerə çatdı ki, əxbarilik ilə mübarizə aparan böyük alimlərə nəcis hökmü verdilər. Fəlsəfə oxuduqlarına, Allahın varlığını müəyyən hədislərlə deyil əql ilə izah etdiklərinə görə alimlər təqib olunmağa başladı. Dahi İslam alimləri başa düşürlər ki, İslamın yenidən dirçəldilməsi üçün renessans, intibah dövrünün vurduğu zərərləri aradan qaldırmaq üçün düşmənin səpdiyi iki zəhərli toxum aradan qaldırılmalıdır. Nə qədər ki, ağıl bütün məsələlərdən kənarda saxlanılır, inkişaf baş verməyəcək.

Allahım, bizlərə İslamın dərdlərini başa düşüb onlardan həyatımız üçün dərslər götürməyi nəsib et! Allahım, müsəlman ümmətinə günbəgün İslam elmlərinə daha dərindən yiyələnmək səadətini nəsib et! Amin!

**Hacı İlqar İBRAHİMOĞLU**
*ibrahimoglu@gmail.com*

## *1-DƏN 10-A QƏDƏR OLAN BÜTÜN RƏQƏMLƏRƏ BÖLÜNƏN RƏQƏM*



***Bir gün elm və hikmət qütbü Həzrəti Əli (ə) atını minməyə hazırlaşarkən, bir ayağı yerdə, o biri ayağı üzəngidə olduğu halda bir yəhudi riyaziyyatçı ona: «Ey bütün biliklərə sahib olan İmam! Mənə elə bir ədəd de ki, 1-dən 10-a qədər bütün rəqəmlərə bölünsün və qismət qalıqsız olsun». Həzrəti Əli (ə) elm aynası olan parlaq üzünü yəhudi alimə çevirərək «İstədiyin ədədi tapa bilsəm, müsəlman olarsanmı? — Bəli, olaram, ey İmam! Onda həftə günlərinin sayını vur çevrənin tam dərəcəsinə» — o biri ayağını da üzəngiyə keçirib atını mindi. Yəhudi 7-ni 360-a vurub 2520 ədədini aldı, sonra yenə də fikrində 2520:1=2520;***




***2520:2=1260; 2520:3=840:***
***2520:4=630; 2520:5=504;***
***2520:6=420; 2520:7=360;***
***2520:8=315; 2520:9=280;***
***2520:10=252 Heyrət və dəhşətlər içində, yəhudi alim infial edərək: «Ey elmi büllurlardan duru İmam! Verdiyim vədə əməl edib, müsəlman oldum! İslamı qəbul edirəm!» Bir müsəlmanın da artdığından xoşbəxtlik duyan Həzrət Əli atını çapıb, gözdən itdi.***



# *Qəm-qüssədən necə qurtulaq?*

***İmam Əlidən (ə) soruşurlar ki, Allahın ən möhkəm məxluqu nədir? Həzrət (ə) cavab verir: "On şeydir: möhkəm dağlardır ki, dəmir ona qələbə çalar. Atəş dəmiri yeyər və su atəşi söndürər. Bulud suyu gəzdirər, külək buludları sıxar. İnsan küləyə qələbə çalar, məstlik insana hakim olar. Yuxu məstliyi məğlub edər. Qəm-qüssə yuxuya qələbə çalar. Deməli, Allahın ən möhkəm məxluqu - qəm-qüssədir".***

***Qurani-Kərimdə qəm sözü 40 dəfə işlənmişdir. Qəm insan nəfsini yaralayan bir haldır. Ona görə də insana ziyan vurar. Qəm və qüssədən uzaq olmaq üçün onu tanıyaq və aradan qaldırmağa çalışaq.***

**Yalançı qəm**

Yalançı qəm yanlış həyəcanlardır ki, bəzən şeytan tərəfindən vəsvəsə edilir. İnsan ömrünü tələf edir. İmam Sadiq (ə) buyurur: "Dünyaya rəğbət göstərmək - qəm-qüssəni yaradan amildir. Zahidlik isə qəlbin rahatlıq amilidir".

**Həsrət çəkmək**

Həzrət Peyğəmbər (s) buyurur: "Hər kim başqalarının əlində olana həsrətlə baxarsa, qəmi uzun və təəssüfü davamlı olar".

Ona görə də belə bir həsrət qəm-qüssədən qaynaqlanır. Siz indiyə qədər qəmi olmayan bir paxıl insan gör-müsünüzmü? İmam Əli (ə) buyurur: "Həsəd çəkən adamdan özünə qarşı daha zalımını görmədim. Çünki onun qəlbi pərişanlığı və həmişəlik qəmi vardır".

**Səbirsizlik**

İnsanda səbrin və hövsələnin olmaması onu qəm-qüssəyə düçar edər.

**Qüssə yemək**

Qəm və qüssə xəstəlik gətirər. Həkimlərin nəzərinə görə, bir çox cismi və ruhi xəstəliklər qəm və qüssədən qaynaqlanır. İnsan qəlbində qəm çəkərək, bədənində zəhər istehsal edər. Bu zəhər onun immunitet sisteminə ziyan vurar. Qəm insan nəfsini yaralayar, onun inkişaf etməsinə mane olar. İnsanın enerjisini hədər verər. Bu fani dünya üçün bu qədər qəm çəkməyə dəyərmi?

**Yalançı qəmin təsiri**

Dünya qəmi insana müsbət təsir qoymaz. Əksinə, insanda ümidsizlik yaradar. Çoxlu qəm yemək insanı tez qocaldar, bədəni çürüdər. İnsanda müxtəlif xəstəliklər törədər. Qəm çəkən insanın əxlaqı pis və kobud olar. Ona görə də İlahi rəhməti görməz, nəticədə ona qarşı bədgüman olar.

**Qəm və qüssə ilə mübarizə yolları.**

**a) İlahi rəhmətə sevinmək.**

"De: «Allahın lütf və rəhmətinə, (bəli) həmin lütf və rəhmətə sevinsinlər ki, o, onların yığdıqlarından daha yaxşıdır»". ("Yunus" 58).

**b) Səbir.**

"(Bu,) əlinizdən çıxan şey üçün təəssüflənməməyiniz və sizə verilən şey üçün (yersiz) sevinməməyiniz üçün(dür)! Allah heç bir öyünən təkəbbürlünü sevmir". ("Hədid" 23).

O insan ki, müsibətlə rastlaşar, qəmgin olar. O zaman ki, şiddətlə qəm çəkər, Allaha ah-nalə etsin və səbrin pənahında sakit olsun. "Ey iman gətirənlər, səbir və namazdan kömək diləyin ki, həqiqətən Allah səbir edənlərlədir".

("Bəqərə" 153).

**c) Tövbə.**

İnsan qəm və qüssəsini istiğfar edərək və Allaha pənah apararaq, aradan apara bilər. Çünki insanın başına gələn bir çox hadisələr əməllərinin nəticəsidir. Allah heç kimə zülm etməz. "Qovulmuş Şeytandan Allaha pənah apar". ("Nəhl" 98).

**Həqiqi qəm**

Bəs həqiqi qəm nədir? Hədislərdə oxuyuruq ki, insan qəlbini təmizləmək istəyirsə, qəm-qüssə yeməlidir. Ancaq dünya qəmi deyil, bəlkə pis əməl və rəftarının qəmini çəkmək nəzərdə tutulur. Çünki bu əməl və rəftar səni Allahdan uzaqlaşdırmışdır.

Həzrət Peyğəmbərə (s) sual verirlər ki, Allah haradadır? Buyurur: "Sınmış qəlblərin yanında".

Təbiidir ki, bu qəm - dünya qəmi deyildir. Allah Quranda buyurur: "İlahi Övliyaların qəlblərində qəm və qorxuları yoxdur". Yəni dünya qəmi heç bir zaman onlara əziyyət verməz.

Beləliklə, qəm və qüssədən uzaq olaq, ancaq həqiqi qəm yeyək.

# Quranda adı çəkilən heyvanlar









**1- Dəvə**

"Ayələrimizi yalan hesab edənlərə və onlara təkəbbürlə yanaşanlara göyün qapıları açılmaz (əməlləri, duaları qəbul olunmaz, ruhları göyə qalxmaz) və dəvə iynənin gözündən keçməyənə qədər onlar da Cənnətə daxil ola bilməzlər. Biz günahkarlara (müşriklərə və kafirlərə) belə cəza veririk!" (əl-Əraf/ 40)

**2- Ağcaqanad**

"Əlbəttə, Allah (Quranda) ağcaqanadı və ya ondan daha böyüyünü misal gətirməkdən çəkinməz. İman gətirənlər bunun öz Rəbbi tərəfindən bir həqiqət olduğunu bilirlər, kafirlər isə: "Allah bu məsəllə nə demək istəyir?" -deyirlər. Allah bununla (bu məsəllə) bir çoxlarını zəlalətə salır, bir çoxlarını isə doğru yola yönəldir. Allah yalnız fasiqləri zəlalətə düçar edir" (əl-Bəqərə / 26)

**3- Qatır**

"Sizin minməyinizdən ötrü, həm də zinət üçün atı, qatırı və uzunqulağı (O yaratdı). (Allah) hələ sizin bilmədiyiniz neçə-neçə şeylər (nəqliyyat, minik vasitələri və s.) də yaradacaqdır" (ən-Nəhl / 8)

**4- Buzov**

"Həqiqətən, elçilərimiz (mələklər) İbrahimə müjdə (İshaqın anadan olacağı xəbərini) gətirib: "Salam!" – dedilər. (İbrahim də: ) "Salam!" – deyə cavab verdi və dərhal (gedib onlara) qızarmış bir buzov gətirdi." (Hud / 69)

"(Bir daha) xatirənizə gətirin ki, Biz Musaya (Tur dağında vəhy üçün) qırx gecəlik vədə vermişdik. (O, Tur dağına gedəndən) sonra siz buzovu özünüzə (tanrı) qəbul etdiniz və (bu hərəkətinizlə Alladan başqasına ibadət etməklə) zalım oldunuz (özünüzə zülm etdiniz)." (əl- Bəqərə / 51)

**5- İnək**

"Onlar dedilər: "Bizdən ötrü Rəbbini çağırıb (Rəbbinə dua edib) soruş ki, o (inək) nə cür olmalıdır?" (Musa: ) "Allah o inəyin nə çox qoca, nə də çox cavan deyil, bunların ikisinin arasında (düyə) olduğunu buyurur. Sizə əmr olunan şeyi yerinə yetirin!" –dedi." (əl-Bəqərə / 68)

"Yəhudilərə dırnaqlı heyvanların hamısını haram etdik. İnək və qoyunun bellərinə və ya bağırsaqlarına yapışan, yaxud sümüklərinə qarışan yağlar müstəsna olmaqla, onların piylərini də yəhudilərə haram buyurduq. Həddi aşdıqlarına görə onları belə cəzalandırdıq. Şübhəsiz ki, Biz sözündə doğru olanlarıq!" (əl-Ənam / 146)

**6- İlan**

"(Firon bunu deyən kimi) Musa əsasını (yerə atdı) və o, dərhal (hamının gözünə) aşkar görünən bir əjdaha (ilan) oldu" (əl-Əraf / 107)

"(Musa) əsasını (yerə) atan kimi, o dərhal açıq-aşkar bir əjdaha (ilan) oldu" (əş-Şuəra / 32)

**7- Çəyirtkə**

"Biz ayrı-ayrı möcüzələr üzrə onlara tufan, (əkinlərinə) çəyirtkə və həşərat, (evlərinə, yeməklərinə) qurbağa və (çeşmələrinə, kəhrizlərinə) qan göndərdik. Onlar yenə də (iman gətirməyi) özlərinə sığışdırmayıb kafir bir tayfa oldular." (əl-Əraf / 133)

"Onlar (o gün) gözlərini zəlilanə aşağı dikib (ətrafa) səpələnmiş çəyirtkələr kimi qəbirlərindən çıxacaqlar" (əl-Qəmər / 7)

**8-Uzunqulaq**

"Sizin minməyinizdən ötrü, həm də zinət üçün atı, qatırı və uzunqulağı (O yaratdı). (Allah) hələ sizin bilmədiyiniz neçə-neçə şeylər (nəqliyyat, minik vasitələri və s.) də yaradacaqdır." (ən-Nəhl / 8)



**9- Nəhəng balıq - Balina**

"(Yunis Allahın izni olmadan qövmünü tərk edib getdiyinə görə) özünü qınayarkən (dənizə atılarkən) balıq onu udmuşdu." (əs-Saffat / 142)

"(Ya Rəsulum!) Sən öz Rəbbinin hökmünə səbr et və balıq sahibi (Yunis peyğəmbər) kimi olma (risaləti təbliğ etməyi yerə qoyma). O zaman o, (balığın qarnında) qəm-kədər içində boğularaq (Rəbbinə) dua etmişdi." (əl-Qələm / 48)



**10- Donuz**

"O (Allah) sizə ölmüş heyvanı, (axar) qanı, donuz ətini və Allahdan başqasının adı ilə (bütlərin və s. adı ilə) kəsilənləri (yeməyi) qəti haram etmişdir. Lakin naəlac qaldıqda (başqasının malını) zorla mənimsəmədən və həddi aşmadan (zəruri ehtiyacı ödəyənə qədər) bunlardan yeməyə məcbur olan kimsənin heç bir günahı yoxdur. Allah bağışlayandır, mərhəmətlidir" (əl-Bəqərə / 173)

"(Ya Rəsulum!) De: "Mənə gələn vəhylər içərisində murdar olduqları üçün ölü heyvan, axar qan, donuz əti və ya Allahdan başqasının adı ilə (bismillah deyilmədən) günah olaraq kəsilmiş heyvanlar istisna olmaqla, hər hansı bir kəsin yediyi yeməklər içərisində haram buyurulan bir şey görmürəm. Bununla yanaşı, hər kəs məcburiyyət qarşısında qalsa, həddi aşmadan, zəruri ehtiyacını ödəyəcək qədər (bunlardan yesə, Allah ona cəza verməz)". Çünki sənin Rəbbin, həqiqətən, bağışlayandır, rəhm edəndir!" (əl-Ənam / 145)



**11- At**

"Qadınlar, uşaqlar, qızıl-gümüş yığınları, yaxşı cins atlar, mal-qara və əkin yerləri kimi nəfsin istədiyi və arzuladığı şeylər insanlara gözəl göstərilmişdir. (Lakin bütün) bunlar dünya həyatının keçici zövqüdür, gözəl dönüş yeri isə Allah yanındadır." (Ali-İmran / 14)



**12- Qurd**

"(Yəqub) dedi: "Onu aparmağınız məni çox məyus edər (ayrılığına dözə bilmərəm). Qorxuram ki, onu qurd yeyə, siz də xəbər tutmayasınız! Onlar: "Biz güclü bir dəstə (on bir nəfər) ola-ola (gözümüzün qabağında) qurd onu yesə, onda biz aciz olarıq ki!" – deyə cavab verdilər." (Yusuf / 13-14)

"Və dedilər: "Ata! Biz (at çapmaq, yaxud qaçışıb-ötüşmək və ya ox atmaqda) bir-birimizlə yarışmaq üçün (səhraya) getmişdik və Yusifi şeylərimizin (libaslarımızın) yanında qoymuşduq. Bir də xəbər tutduq ki, qurd onu yemişdir. İndi biz doğru danışsaq da, sən bizə inanmayacaqsan!" (Yusuf / 17)



**13- Milçək**

"Ey insanlar! Bir məsəl çəkildi, ona qulaq asın! Şübhəsiz ki, Allahdan qeyri ibadət etdiyiniz bütlər heç bir milçək də yarada bilməzlər – lap hamısı bunun üçün bir yerə yığışsa belə! Əgər milçək onlardan (bütlərin üstündə olanlardan) bir şey götürüb aparsa, onu milçəkdən geri ala bilməzlər. İstəyən də aciz, istənilən də! (Bütlər də aciz, milçək də, yaxud bütlərə ibadət edən də aciz, ibadət edilən bütlər də!)" (əl-Həcc / 73)



**14- Bildirçin**

"(Yadınıza salın ki, Tih səhrasında yaşadığınız zaman) üstünüzə buludla kölgə saldıq və: "Ruzi olaraq verdiyimiz halal şeylərdən yeyin!" (deyərək) sizə qüdrət halvası və bildirçin göndərdik. Onlar (əcdadınız) isə (itaətdən boyun qaçırmaqla) Bizə deyil, ancaq özlərinə zülm etmiş oldular".

(əl-Bəqərə/ 57)



**15- Qoyun**

"(Allah o heyvanları) səkkiz cift yaratdı: (erkək və dişi olmaq üzrə) bir cüt qoyun

və bir cüt keçi. De: “(Allah) iki erkəyi, yoxsa iki dişini, yaxud da iki dişinin qarınlarındakı (müxtəlif cinsli) balaları haram etdi? Əgər (Allahın nəyi halal, nəyi haram buyurduğunu bildiyinizi) doğru deyirsinizsə, bir elmə əsaslanaraq (bu haqda) mənə xəbər verin!" (əl-Ənam / 143)

**16- Qurbağa**

"Biz ayrı-ayrı möcüzələr üzrə onlara tufan, (əkinlərinə) çəyirtkə və həşərat, (evlərinə, yeməklərinə) qurbağa və (çeşmələrinə, kəhrizlərinə) qan göndərdik. Onlar yenə də (iman gətirməyi) özlərinə sığışdırmayıb kafir bir tayfa oldular."

(əl-Əraf / 133)

**17- Hörümçək**

"Allahdan başqa özlərinə dost (hami) qəbul edənlər özünə yuva qurmuş hörümçəyə bənzəyirlər. Evlərin ən zəifi isə, şübhəsiz ki, hörümçək yuvasıdır. Kaş biləydilər! (Hörümçək toru möhkəm olmayıb adicə bir yel nəticəsində dağıldığı kimi, onların bu dostlarının da heç bir etibarı yoxdur. Bərk ayaqda onları qoyub qaçarlar)." (əl-Ənkəbut / 41)

**18- Qarğa**

"Sonra Allah qardaşının cəsədini necə basdırmağı ona göstərmək üçün yer eşən bir qarğa göndərdi. (Qabil) dedi: “Vay halıma! (Gör nə günə qalmışam!) Bu qarğa qədər olub qardaşımın cəsədini də basdıra bilmərəm?” O, artıq peşman olmuşdu."

(əl-Maidə / 31)

**19 - Kəpənək**

"O gün insanlar kəpənək kimi ətrafa səpələnəcək (çəyirtkə kimi bir-birinə qatışacaq)" (əl-Qariə / 4)

**20 - Fil**

"(Ya Peyğəmbər!) Məgər Rəbbinin fil sahiblərinə (Kəbəni dağıtmaq üçün fillərlə Məkkənin üstünə gələn həbəş ordusuna) nələr etdiyini görmədinmi?!"

(əl-Fil / 1)

**21- Meymun**

"Həqiqətdə siz bilirsiniz ki, içərinizdən bəzi kəslər şənbə günü (Davud zamanında şənbə günü balıq ovunun qadağan edilməsi) haqqında olan əmrdən kənara çıxdılar. Biz də onlara: “(Zəlil və) həqir meymunlar olun!” – dedik" (əl-Bəqərə / 65)

"De: “Allah yanında cəza etibarilə bundan (dediklərinizdən) daha pisini sizə xəbər verimmi? Allahın lənətlədiyi, qəzəbləndiyi, özlərini meymunlara, donuzlara və şeytanlara (bütlərə) ibadət edənlərə döndərdiyi şəxslər mövqecə daha pis və doğru yoldan daha çox azanlardır!" (əl-Maidə/ 60)

**22- Aslan**

"(O eşşəklər ki) aslandan hürküb qaçarlar!"

(Muddəssir / 51)



**23- Bit**

"Biz ayrı-ayrı möcüzələr üzrə onlara tufan, (əkinlərinə) çəyirtkə və bitlər, (evlərinə, yeməklərinə) qurbağa və (çeşmələrinə, kəhrizlərinə) qan göndərdik. Onlar yenə də (iman gətirməyi) özlərinə sığışdırmayıb kafir bir tayfa oldular" (əl-Əraf / 133)

**24- İt**

"Əgər Biz istəsəydik, onu (həmin ayələrlə) ucaldardıq. Lakin o, yerə (dünyaya) meyl edib nəfsinin istəklərinə uydu. O elə bir köpəyə bənzəyir ki, üstünə cumsan da dilini çıxardıb ləhləyər, cummasan da (Onun üçün heç bir fərqi yoxdur). Bu, ayələrimizi yalan hesab edənlər barəsində çəkilən məsəldir. (Ey Peyğəmbərim!) Bu əhvalatları (yəhudilərə) söylə ki, bəlkə, (lazımınca) düşünsünlər!" (əl-Əraf / 176)

**25- Keçi**

"(Allah o heyvanları) səkkiz cift yaratdı: (erkək və dişi olmaq üzrə) bir cüt qoyun və bir cüt keçi. De: “(Allah) iki erkəyi, yoxsa iki dişini, yaxud da iki dişinin qarınlarındakı (müxtəlif cinsli) balaları haram etdi? Əgər (Allahın nəyi halal, nəyi haram buyurduğunu bildiyinizi) doğru deyirsinizsə, bir elmə əsaslanaraq (bu haqda) mənə xəbər verin!"

(əl-Ənam / 143)

**26- Qarışqa**

"Nəhayət, onlar (Taifdəki, yaxud Şamdakı) qarışqa vadisinə gəlib çatdıqda bir qarışqa (qarışqaların padşahı) dedi: “Ey qarışqalar! Yuvalarınıza girin ki, Süleyman və ordusu özləri də bilmədən sizi (ayaqları altında) basıb əzməsinlər!"

(ən-Nəml / 18)

**27- Arı**

Rəbbin bal arısına belə vəhy (təlqin) etdi: “Dağlarda, ağaclarda və (insanların) qurduqları çardaqlarda (evlərin damında, üzümlüklərdə) özünə evlər tik (pətəklər sal) (ən-Nəhl / 68)

**28- Şanapipik**

Sonra (Süleyman) quşları yoxlayıb dedi: “(Torpaq altında suyun harada olduğunu bilən) Hüdhüdü (şanapipiyi) niyə görmürəm? Yoxsa o burada yoxdur?(ən-Nəml/20)



# QİYAMƏTDƏN ÖNCƏ BAŞ VERƏCƏK HADİSƏLƏR!

***Həzrəti Muhəmməd (s) qiyamətdən əvvəl baş verəcək hadisələri anlatmışdır. Hadisədəki əlamətlər qiyamətin yaxınlaşmasını göstərir.***

*1. Qiyamətin əlamətləri bir cizgidə muncuqların arxa-arxaya kimi qoşulduğu kimi bir-birinin arxası ilə gələr.*

*2. Dünya hərc-mərclik içində qalanda, fitnələr zühur edəndə, yollar kəsiləndə, bəziləri bəzilərinə hücum edəndə qiyamət yaxınlaşar.*

*3. Qiyamət yaxınlaşanda ölüm hadisələri və qətliamlar geniş yayılacaq.*

*4. İnsanların öz əlləri ilə etdikləri pis əməllərin nəticəsində quruda və suda fəsad və pozuntu əmələ gələr ki, Allah onlara etdikləri bəzi günahların cəzasını daddırsın ki, bəlkə onlar qayıtsın.*

*5. Böyük şəhərlər dünən sanki, yox imiş kimi məhv olar.*

*6. Bu hadisələr olana qədər qiyamət qopmayacaqdır, zəlzələlər çoxalacaqdır.*

*7. Aclıq və həyatın bahalığı çoxalacaqdır.*

*8. Pozğunluq aşkar edilmədən qiyamət qopmaz.*

*9. Zinanın çoxalması qiyamətin əlamətlərindəndir.*

*10. Qiyamət yaxınlaşanda həya, kişinin qadınla yolun ortasında cinsi əlaqədə olacaq qədər aradan gedər. Kişilər qadınlara bənzəyəcək, qadınlar da kişilərə bənzəyəcək.*

*11. Kişilər kişilərlə, qadınlar da qadınlarla kifayətlənəndə qiyamət yaxınlaşacaq.*

*12. İnsanlara elə bir vaxt gələcək ki, Quran bir vadidə, insanlar başqa vadidə olarlar.*

*13. İnsanlara elə bir dövr gələcək ki, Qurani-Kərimin yalnız adı qalacaq. Onlar İslamdan çox uzaq olduqları halda İslami adlarla adlandırılacaq, məscidlər gözəl göründüyü halda, hidayət yönündən xarab olacaqdır.*

*14. Qiyamətə yaxın Quran oxuyan, ancaq oxuduqları yalnız dillərdə qalan, ürəklərinə gedib çatmayan insanların törəyəcəyi bir zaman gələcəkdir.*

*15. Axirzamanda sizdən əvvəlki millətləri qarış-qarış izləyəcəksiniz. Hətta onlar (xristianlar və yəhudilər) kərtənkələ deşiyinə girsələr belə, siz də onların arxaları ilə ora girəcəksiniz.*

*16. Qiyamətdən əvvəl qaranlıq gecələr kimi fitnələr var.*

*17. Qiyamətə yaxın qaranlıq hissələr kimi qarışıqlıqlar olacaqdır. Bu qarışıqlıqlar içində insan mömin olaraq səhəri açıb, kafir olaraq axşamlayacaq. Mömin olaraq axşamlayıb, kafir olaraq səhəri açacaqdır.*

*18. Haram olan şeylərin halal hesab edilməsi qiyamətin əlamətlərindəndir.*

*19. Riyakarlıq (ikiüzlülük) hakim olacaq, riya və təkəbbürdən utanılmayacaq.*

*20. Alimlər elmi ancaq pul qazanmaq üçün öyrənəndə, dini dünya mənfəəti əvəzinə satanda qiyamət yaxınlaşacaq.*

*21. Axirzamanda elə insanlar çıxacaq ki, dinlərini dünya mənfəətinə satacaqlar. Bunlar yumşaq görünmək üçün qoyun dərisinə bürünəcəklər. Dilləri şəkərdən şirin, lakin ürəkləri qurd ürəyi kimi qatı olacaqdır.*

*22. Ümmətimin axır dövrlərində məscidlərini bəzəyib ürəklərini xarab saxlayan, paltarını çəkinib qoruduğu qədər dinini çəkindirib qorumayan, dünya işlərinin yolunda getməsi üçün dinini vasitə etməyə fikir verməyən bəzi insanlar törəyəcək.*

*23. Yaxşılıq tərk edilib əmr edilməyəndə və pislik edilib qarşısı alınmayanda qiyamət yaxınlaşacaq.*

*24. Qiyamət yaxınlaşır yaxşılıq azalar.*

*25. Qiyamətin bir əlaməti məscidlərin içərisində günahkarların səslərinin yüksəlməsi və günahkarların əmr etdiklərini yerinə yetirən səmimi möminlərin üzərində qalib gəlib hökm etmələridir.*

*26. İnsanlara elə bir zaman gələcək ki, məscidlərdə yığışıb namaz qılarlar, ancaq içərilərində bir dənə də belə mömin olmaz.*

*27. Kim Quran oxusa savabını Allahdan istəsin. Son dövrlərdə Quranı oxuyub mükafatını insanlardan istəyən bəzi insanlar törəyəcək.*

*28. Quranın mahnı kimi oxunulub həzz alındığı, hətta insan alim olmadığı halda bu cür oxuduğuna görə gözə girdiyi vaxt qiyamət qopar.*

*29. Axirzaman ümmətim üçün ən çox qorxduğum şey ulduzlara inanmaq və qədəri yalan saymaqdır.*

*30. İnsanlara elə bir vaxt gələr ki, sələm (faiz) yeməyən adam qalmaz. Onu yeməsə də tozu mütləq dəyər.*

*31. İnsanlara elə bir dövr gələr ki, zənginləri səyahət üçün, alimləri riya və göstəri üçün, kasıbları isə dilənmək üçün həccə gedərlər.*

*32. Qiyamət yaxınlaşanda qanunsuz əlaqələrdən doğulan uşaqlar (biclər) çoxalar.*

*33. Dedi-qoduçular, qeybətçilər və lağ edənlərin çoxalması qiyamətin əlamətlərindəndir.*

*34. Hündür-hündür binalar inşa edilməyənədək qiyamət qopmaz.*

# Sual

# ƏMƏLLƏRİN HESABINDA HƏQİQİ YOXSUL KİM OLACAQDIR?

İnsanların çoxu Qiyamət günü görəcəklər ki, əllərində heç bir şey qalmamışdır. Dilənçilik etməyə başlayacaq və insanlardan yardım diləyəcəklər. Həm yaxşılardan və həm də pislərdən kömək istəyəcəklər. Şeytandan da kömək diləyən olacaqdır. Mələklərdən kömək istəyəcəklər. Allahdan kömək istəyəcəklər.

**"(Həmin) o gün ki, münafiq kişi və qadınlar (məhşər əhlinin məxsus hədəf istiqamətindəki yolunda) iman gətirənlərə deyəcəklər: «Bizə görə (bir az) dayanın və möhlət verin və ya bizə tərəf baxın ki, nurunuzdan işıq götürək». Onlara deyiləcək: «Geriyə (dünyaya) qayıdın və (orada) nur axtarın». Həmin vaxt onların (mömin və münafiqlərin) arasında qapısı olan divar çəkiləcək. Onun (cənnətə sarı olan) içəri tərəfində mərhəmət, (cəhənnəmə sarı olan) çölündə isə o tərəfdən əzab vardır".**

("Hədid" 13).

**"Və Cəhənnəm əhli Cənnət əhlini səsləyəcək ki: «Sudan və ya Allahın sizə verdiyi ruzidən bizim üstümüzə tökün». Deyəcəklər: «Həqiqətən Allah bu ikisini kafirlərə haram etmişdir»"**. ("Əraf" 50).

**"Onlar möminləri «məgər biz dünyada sizinlə deyildik?» (deyə) səsləyəcəklər. (Möminlər) deyəcəklər: «Bəli, lakin siz özünüzü həlakətə atdınız, (möminlər üçün hər cür fəlakət, şər) gözlədiniz, (haqq dinə) şübhə etdiniz, (batil) arzular sizi məğrur etdi və nəhayət, Allahın (sizin məhviniz barəsindəki) əmri gəlib yetişdi və yalançı şeytan sizi Allah barəsində aldatdı»". ("Hədid"** 14).

Qiyamət elə bir yerdir ki, insanın bütün əməlləri tərəziyə qoyular və əgər əməlləri ağır gələrsə, həmin şəxsin nicat tapması üçün bir şans olar.

İmam Səccad (ə) buyurur: **"Allahım, əgər zalımın üzünə gülümsəmişəmsə, məni bağışla. Zalımın üzünə gülümsəmək olmaz".**

İmam (ə) bir nəfərə buyurur: "Sən dəvələrini Harun Rəşidə vermisən"? Deyir: Bəli. Buyurur: "Sən istəyirsənmi ki, Harun sağ olsun və dəvələrinin kirayə pulunu sənə versin?". Deyir: Bəli. İmam (ə) buyurur: "Harunun sağ olmasını hər nə qədər istəyirsənsə, bir o qədər günah işlədirsən. Sən gərək Harunun bir dəqiqə



belə sağ olmasını istəməyəsən. Ancaq sən istəyirsən ki, o, sağ qalsın və ondan kirayəni alasan".

Qiyamət günü əliboş olanlar şeytandan yardım diləyərlər və şeytan onlara deyər: "(Qiyamət günü) iş tamam olduqda(n və cəhənnəmliklər öz yerlərini tutduqdan sonra böyük) şeytan (və birinci İblis bütün cəhənnəm əhlinə xitab edərək) deyər: «Həqiqətən, Allah sizə haqq vəd verdi (onların hamısı gerçəkləşdi). Və mən sizə vəd verdim və vədimə xilaf çıxdım (heç biri həyata keçmədi). Mənim (dünyada) sizin üzərinizdə, sizi dəvət etməkdən başqa heç bir hökmranlığım yox idi və siz (də) mənim dəvətimi qəbul etdiniz. Odur ki, məni məzəmmət etməyin, özünüzü məzəmmət edin. İndi nə mən sizin dadınıza yetişənəm və nə (də) siz mənim dadıma yetişənsiniz. Mən bundan qabaq məni itaətdə Allaha şərik qoşmağınıza kafirəm. Həqiqətən, zalımlar üçün ağrılı bir əzab vardır»".

("İbrahim" surəsi, 22-ci ayə).

Mələklərdən yardım diləyər və cəhənnəm mələkləri onlara deyərlər: "(Gözətçilər) deyərlər: «Məgər peyğəmbərləriniz (dünyada) sizə aydın dəlillər gətirmirdilər?» Onlar deyərlər: «Bəli!» (Gözətçilər) deyərlər: «Belə isə (Allahı özünüz) çağırın və (bilin ki,) kafirlərin çağırışları yalnız azğınlıqda olacaqdır»".

("Ğafir" 50).

Allahdan yardım diləyərlər və Allah buyurar: **"(Allah) buyurar: "Orada zəlil vəziyyətdə sakit və uzaq olun, Mənimlə əsla danışmayın!""**. ("Muminun" 108).

Beləliklə, hələ ki, fürsət var, əməllərimizin sayını artıraq və Qiyamət günü əliboş qalmayaq.

Cavab

# İNSAN CAN VERƏN ZAMAN ÖZ HALINDAN XƏBƏRDAR OLURMU?

Ölüm insan üçün çox ağır bir prosesdir. İnsan can verərkən ölüm səkəratına giriftar olur. Onun üçün o qədər dəhşətli olur ki, təəccüb içində donub qalır və nə olduğunu, nə olacağını anlamır.

Bir müddət sonra bərzəx gözü açılır və insan həmin vaxtadək görmədiyi səhnələri müşahidə edir. Bir tərəfdən ömür fürsətini əldən verdiyi üçün peşimançılıq çəkir, digər bir tərəfdən dünyadan ayrılıq həqiqəti olduqca çətin gəlir.



Can verən anda insan bildiklərini, oxuduqlarını yaddan çıxarır. Bizim övladlarımıza öyrətdiyimiz ən ibtidai məsələ ölümdən sonrakı həyat haqqındadır. Bununla belə, ölüm sıxıntısı o qədər ağır olur ki, insan öyrəndiklərini yaddan çıxarır və qəfildən dərk edir ki, heç bir tanışlığı olmayan bir aləmə gəlmişdir.

İnsan bəzən dünyaya həddən artıq bağlandığı üçün öz kimliyini unudur. O yalnız təbii, heyvani, maddi yönümünə diqqət göstərir. Belə bir insan ölümlə üzləşdiyi vaxt bərzəxdə gördüklərindən heyrətə gəlir və özündən xəbərsiz olur. İnsan öldükdən sonra uzun müddət dünyadan köçdüyünü anlamaya da bilər. Bu sarsıntılı halda o Allah, peyğəmbər, din haqqında suallara cavab verməkdə aciz olur. Bəli, insan Allah zikrini öz canında o qədər möhkəmləndirməlidir ki, çətin məqamlarda Allahı yaddan çıxarmasın.

# HƏR HANSI BİR FİZİKİ ƏKSİKLİK QARŞISINDA ŞİKAYƏT ETMƏK DOĞRU OLARMI?

Xəstəlik, şikəstlik ya da kasıblıq kimi əksikliklər, insanın dünya həyatının keçiciliyini anlaması və cənnətə özləm duyub, bu yöndə cəhd etməyə yönəlməsi üçün Allahın yaratdığı özəl vəziyyətlərdir. Bu səbəblə də bunlar əslində Allahın qullarına olan lütfündən qaynaqlanmaqdadır. Dünyada əksiklik kimi görünən bu mövzular, ibrət almasını bilən bir insanın sonsuz həyatı baxımından böyük bir nemətə çevrilir. Allah dünya həyatının əksikliklərinə və çətinliklərinə qarşı, Allahın razılığını qazanmaq məqsədilə təvəkkül edib səbr göstərən qullarına cənnətini vəd etmişdir. Dahası Allah orada bu kəslərin həm mənəvi, həm də fiziki baxımdan bütün əksikliklərini ödəyəcək, onları ən gözəl surətdə həm də sonsuz bir yaradılışla yaradacaqdır.

Ona görə bu səbəblə bir acizlik qarşısında dünya həyatında etməsi vacib olan şey, bu gerçəyi heç unutmadan sonsuz ağıl sahibi olan Rəbbimizə tamamilə təslim olmasıdır. Çünki Allahın bir insan üçün təqdir etdiyi qədərdə o insanın heç bilmədiyi xeyirlər və bir çox hikmət vardır. İnsanların kasıblıq, çirkinlik ya da xəstəlik kimi xoşlarına getməyən vəziyyətlərə qarşı üsyankar və şikayətçi bir tutum içində olmaları Quran əxlaqına uyğun deyildir. İnsana düşən Allahın onun üçün təqdir etdiyi qədərə razı olmaqdır. Unutmamaq lazımdır ki, hər hansı bir vəziyyətdən şikayətçi və məmnuniyyətsiz olan bir insan, əslində Allahın onun üçün dilədiyi bir gözəlliyə qarşı məmnuniyyətsiz bir davranış göstərmiş olur. Bu isə Allaha qarşı böyük bir nankorluqdur. Möminlərin bu mövzuda göstərməli olduqları ideal davranış isə Quranda belə bildirilmişdir:

De : “ Allahın bizim üçün yazdığından başqa bizə heç bir şey üz verməz. O bizim ixtiyar sahibimizdir. Buna görə də möminlər yalnız Allaha təvəkkül etsinlər! ” (Tövbə surəsi, 51 )

# Ruzini artıran və kasıblığı aradan qaldıran əməllər

Əllamə Məclisi "Hilyətül-müttəqin" kitabının "Xatimə" bölümündə yazır:

İmam Əli ibn Əbu Talibdən (ə) rəvayət edilib ki, bir neçə əməl kasıblığa səbəb olar, bəzi əməllər də ruzini artırar.

Kasıblıq gətirən əməllər bunlardır: evin divarlarındakı hörümçək torunu dağıtmamaq (yəni divarları təmiz saxlamamaq), hamamda çimərkən sidik buraxmaq, cənabətli halda yemək, ayaq üstə saç daramaq, süpürülmüş toz-torpağı atmayıb evin içində saxlamaq, yalandan and içmək, zina etmək, acgözlük etmək, şam və xiftən namazlarının arasında yatmaq, sübhdən sonra, günəş çıxmazdan əvvəl yatmaq, çoxlu yalan danışmaq, ğinaya (haram musiqiyə) qulaq asmaq, axşam dilənən dilənçiyə heç nə verməmək, yaşayış xərcini həddən artıq çoxaltmaq (israf etmək) və yaxınlarla (qohumlarla) pis rəftar etmək.

Var-dövlətin çoxalmasına səbəb olan əməllər isə aşağıdakılardır: sübh namazından və əsr namazından sonra dua oxumaq, yaxınlara yaxşılıq və ehsan etmək, evin həyətini süpürmək, öz malını mömin qardaşlarla bölüşmək, səhər tezdən ruzi dalınca getmək, çoxlu istiğfar etmək (yəni günahlarını bağışlamaq üçün Allaha yalvarmaq), camaatın əmlakına xəyanət etməmək, düzgün və haqq söz danışmaq, müəzzinin (azan verənin) ardınca azanın sözlərini təkrar etmək, ayaqyolunda danışmamaq, dünyaya həris olmamaq, nemət verənə (həm Allaha, həm də ehsan edən insanlara) təşəkkür etmək, yalan yerə and içməkdən çəkinmək, yeməkdən qabaq əlləri yumaq, süfrədə qalmış qırıntıları toplayıb yemək. Hər kim gündə otuz dəfə "Sübhan Allah" söyləsə, Allah-təala yetmiş cür bəlanı ondan uzaqlaşdırar ki, bu bəlaların ən yüngülü kasıblıqdır (Bu hədis "Vəsailüş-şiə" kitabında da mövcuddur; XV, 347-348, hədis 20704).

Şeyx Səduqun "Xisal" və Tacəddin Şeirinin "Cameül-əxbar" kitablarında kasıblığı aradan qaldırmaq və ehtiyaca düşməmək üçün məsumların kəlamlarına əsaslanan bəzi tövsiyələr verilib. Onlardan bəzilərini diqqətinizə təqdim edirik:

**İmam Muhəmməd Baqir (ə) buyurub: "Başqalarına yaxşılıq etmək və sədəqə vermək kasıblığı aradan qaldırar, ömrü uzadar və yetmiş cür bəlanı insandan uzaqlaşdırar".**

İmam Cəfər Sadiq (ə) buyurub: "Hər kim cümə axşamı günündə bütün dırnaqlarını kəsib, birini cümə gününə saxlasa, Allah kasıblığı ondan uzaqlaşdırar".

Həzrət Muhəmməd Peyğəmbər (s) buyurub: "Hər kim dilənmək qapısını bir dəfə açsa, Allah kasıblıq qapılarından birini onun üzünə açar (yəni hər kim ehtiyacı olmadığı halda başqasından nə isə istəsə və ya ruzi qazanmağa gücü çatdığı halda dilənçilik etsə, Allah onu həqiqətən kasıblığa düçar edər)".

İmam Əli (ə) buyurub ki, evə daxil olarkən İxlas surəsini oxumaq kasıblığı aradan qaldırar.

Peyğəmbər sağ əlin barmağına əqiq üzük taxmağı da kasıblığa qarşı faydalı hesab edirdi. İmam Cəfər Sadiq (ə) isə bu məqsədlə yaqut üzük taxmağı məsləhət görürdü.

Tacəddin Şeirinin "Cameül-əxbar" kitabında (səh. 125) yazılıb ki, Həzrət Muhəmməd Peyğəmbər (s) kasıblığa səbəb olan iyirmi əməli sadalayıb. Bunları edən adamın ruzisi azalar, bərəkəti çəkilər. Bu əməllərdən bəziləri yuxarıda Həzrət Əlidən (ə) rəvayət edilmiş hədislə oxşardır. Fərqli əməllər isə aşağıdakılardan ibarətdir:

Gecə çılpaq halda yataqdan qalxıb sidiyə getmək, yeməkdən əvvəl əlləri yumağı tərgitmək, süfrədəki qırıntılara xor baxmaq (yəni onları tapdalamaq və ya zibilliyə atmaq), soğanı və sarımsağı odda yandırmaq, evin kandarında oturmaq, gecə evi süpürmək, ayaqyolunda yuyunmaq (övrət yerlərini pak etmək istisna edilir), qab-qacağı yumayıb kirli halda səhərə saxlamaq, su qabının ağzını örtməmək, namaza etinasız yanaşmaq, məsciddən tez çıxmağa tələsmək (yəni məsciddə ibadətləri tələsik yerinə yetirmək), sübh tezdən bazara gedib axşamdan keçmiş qayıtmaq, övlada bəddua və lənət etmək, yalan danışmaq, paltarı əyində geyilmiş halda tikmək, çırağı üfürməklə söndürmək, doyduqdan sonra yeməyə davam etmək.

İslam.az

# DÜNYANIN ƏN ÜSTÜNLƏRİ



**Bu aləmdə olan bütün varlıqlar Allahın məxluqlarıdır. Bu dünyada olan hər bir məxluq İlahi hikmət üzərində xəlq edilmişdir. Elə bir varlıq yoxdur ki, əbəs yerə xəlq edilsin. Hətta o şeylər ki, bizim gözümüzdə dəyərə malik deyildir, ya da əksər insanların nifrət etdiyi şeylər belə, hikmət üzərində xəlq edilmişdir. Hər birinin Xaliqin yanında öz məqam və mərtəbəsi vardır. İnsan ətrafında olan hər bir şeyə Allahın məxluqu kimi baxmalıdır. Bu məxluqların bəzisi bəzisindən üstün və daha dəyərli və daha yaxşıdır. Mühüm olanı odur ki, insan ən yaxşılarını tanısın və onu dini və mənəvi həyatında nümunə qərar versin.**

**ƏN ÜSTÜN VARLIQ:** ən üstün varlıq insandır. Qurani-Kərim insanı ən üstün varlıq kimi tanıtmışdır.

**ƏN ÜSTÜN KİTAB:** Qurandır. İlahi kitablar içərisində ancaq Quran cavidan bir kitabdır. Ancaq bir nüsxəsi vardır. Həzrət Peyğəmbər (s) buyurur: "Ey Əli! Ən üstün söz - Qurandır".

**ƏN ÜSTÜN ÜMMƏT:** Quranda ən üstün ümmət olaraq, Həzrət Peyğəmbərin (s) ümməti tanıdılmışdır. "Siz (müsəlmanlar), (Allah tərəfindən dünyanın) insanlar(ın)a zahir olmuş ən yaxşı ümmətsiniz, bəyənilən işə əmr edir və çirkin işdən çəkindirirsiniz və Allaha (nazil etdiyi şeylərdə) iman gətirirsiniz". ("Ali-İmran" 110). Sizə çatan hər bir müsibət yerinə yetirdiyiniz əməllərə görədir.

**ƏN ÜSTÜN BƏNDƏ:** ən üstün bəndə o kəsdir ki, təqvalı, pak olsun. Həzrət Peyğəmbər (s) buyurur: "Agah olun, həqiqətən Allahın ən üstün bəndəsi o kəsdir ki, təqvalı, pak olsun. Allahın ən pis bəndəsi o kəsdir ki, barmaqla göstərilər".

**ƏN ÜSTÜN QADIN**: Həzrət Fatimədir (s.ə). Həzrət Peyğəmbər (s) buyurur: "Fatimə behişt əhlinin ən üstün qadınıdır".

**ƏN ÜSTÜN AY:** mübarək Ramazan ayıdır. Həzrət Peyğəmbər (s) bu ayı ayların ən üstünü adlandırmışdır.

**ƏN ÜSTÜN GECƏ:** Qədr gecəsidir. Quran buyurur: "Qədr gecəsi min aydan daha xeyirlidir". ("Qədr" 3).

**ƏN ÜSTÜN İBADƏT:** Quranı tilavət etməkdir. Həzrət Peyğəmbər (s) buyurur: "Ən üstün ibadət - Quran oxumaqdır".

**ƏN ÜSTÜN YEYƏCƏK:** baldır. "Və Rəbbin bal arısına vəhy etdi (onun təbiətində bu əməlin şövq və qüdrətini qoydu) ki: «Dağlardan, ağaclardan və qurulan çardaqlardan (özünə münasib) evlər götür!» «Sonra bütün meyvələrdən (və ağac və bitkilərin şirəsindən) ye. Beləliklə Rəbbinin (xam maddələri bala çevirmək barəsində olan instinkt) yollarını ram və itaətkarlıqla get və pətəklə meyvənin olduğu yer arasındakı get-gəldə Allah tərəfindən ilham olunmuş yolları bir kəsə əziyyət etmədən qət et.. Onların qarınlarından insanlar üçün şəfalı rəngarəng içməli maddələr çıxır. Həqiqətən bunda (bu şərbət və dərmanın düzəldilmə mexanizmində və onu düzəldənin yaşayış tərzində) düşünən bir dəstə üçün bir nişanə vardır". ("Nəhl" 68-69).

**ƏN ÜSTÜN İÇƏCƏK:** süddür. Ən şirin və ləzzətli içəcəkdir. "Həqiqətən dördayaqlılar(ın yaradılışın)da sizin üçün (böyük) bir ibrət vardır. Onların qarınlarında olandan mədədə yarı həzm olunmuş yeməklərlə (onların damarlarından axan) qanın arasından sizə içənlərə xoş gələn xalis və təmiz süd içirdirik". ("Nəhl" 66).

**ƏN ÜSTÜN HƏDİYYƏ:** insanı sevindirən hər bir əşya. İmam Sadiq (ə) buyurur: "Mənim yanımda ən sevimli qardaş o kəsdir ki, eyblərimi mənə hədiyyə edər".

**ƏN ÜSTÜN DƏYƏR:** insafdır. İmam Əli (ə) buyurur: "İnsaf - ən üstün dəyərdir".

**ƏN ÜSTÜN SÖZ:** qısa və başa düşüləsidir. Həzrət Peyğəmbər (s) buyurur: "Ən üstün söz odur ki, başa düşüləsi, qısa və yorucu olmayan olsun".

**ƏN ÜSTÜN İNSAN:** Həzrət Fatimə (s.ə) buyurur: "Sizlərdən ən üstünü o kəslərdir ki, insanlarla yumşaqdırlar. Qadınlarını əziz tutarlar". İmam Əli (ə) buyurur: "Ən üstün insan o kəsdir ki, insanlara fayda versin".

**ƏN ÜSTÜN ELM:** insanlar üçün ən faydalı olanıdır. İmam Əli (ə) buyurur: "Ən üstün elm o elmdir ki, faydalı olar".

**ƏN ÜSTÜN QƏLB:** pak qəlbdir. Paklıqlar və yaxşılıqlar üçün münasib tutumu olan qəlbdir. Həzrət Peyğəmbər (s) buyurur: "Ən üstün qəlb o qəlbdir ki, yaxşılıq üçün tutumu daha çoxdur. Ən pis qəlb o qəlbdir ki, pislik üçün tutumu çoxdur. Deməli ən ali qəlb o qəlbdir ki, yaxşılığı özündəndir. Əgər söz danışarsa, sözü savab olar, əgər sükut edərsə, sükutu savab olar".

***Allah-taala bizləri üstün dəyərlərə malik olanlardan qərar versin! Amin!***

# Xudaverdi Qasımlı



### EY KƏBƏ

*Göy üzünün yer ulduzu,*
*Bürcüm – ey Kəbə, ey Kəbə.*
*O daşda beş kimsəm - yazı,*
*Tacım ey Kəbə, ey Kəbə.*

*Ərəfat – gözləyən dağın,*
*Səfa, Mərvən nura axın.*
*Zəmzəmin – “dur-dur” bulağın,*
*İncim – ey Kəbə, ey Kəbə*

*Rəbbim təkbir – qəlblər lə’li,*
*Mühəmmədli, Fatiməli.*
*Çat divarın – sirrim Əli,*
*Gücüm – ey Kəbə, ey Kəbə.*

*Üzgörələr qurur nələr...,*
*Abrahamlı çox fitnələr...*
*Uçub gələ Əbabillər ,*
*Öcüm – ey Kəbə, ey Kəbə.*

*Kərbəlada can ocağım,*
*Sussuz qalan dil – dodağım.*
*Hey dolanıb, dayandığım,*
*Həccim – ey Kəbə, ey Kəbə.*

*Yerə göbək, ən dərin səmt,*
*Adəmdən yol gələn Vəhdət.*
*Dörd tərəfin – altı cəhət,*
*Ölçüm – ey Kəbə, ey Kəbə.*

*Səcdə yönüm, qiblə qapım,*
*Xudaverdin gözdə qırpım.*
*Gəlim o daşını öpüm,*
*Qucum, ey Kəbə, ey Kəbə.*

### EY MƏNİM AĞAM ƏLİ

*Ya Əli, Əli, Əli,*
*Ey dini sevdam Əli.*
*Ya Əli, Əli,Əli,*
*Ey mənim ağam Əli !*

*Ey şəhidlər atası,*
*Fatimənin butası.*
*Şiələrin nidası,*
*Ey – nuri mövlam Əli.*

*Aşura dinin həqqi,*
*Həqqin Hüseyndir bərqi.*
*Elmi, ürfan, tərəqqi -*
*Ey fəxri aləm Əli.*

*Allahın güclü şiri,*
*Kəbə divarı sirri.*
*Ey möminlərin piri -*
*Əleyhissəlam Əli.*

*Quranı dildə əzbər,*
*Rəsuli – Əkrəm rəhbər.*
*Yox etdin neçə Xeybər*
*Ey seyfi islam Əli.*

*Peyğəmbərin damadı,*
*Heydəri – kərrar adı.*
*Məzlumların imdadı,*
*Ey sirli qalam Əli.*

*Günortanı qaytaran ,*
*Tabutunu aparan.*
*Ümmətini qurtaran*
*Ey fəthi ə’lam Əli.*

*Ey Xudaverdi ağla,*
*Allaha ümid bağla.*
*Hüseynin yasın saxla .*
*Köməkdir imam Əli...!*
*Ey nəzmi kəlam Əli...!*

### AĞAM
*İmam Rzaya (ə)*

*Ey ömrə can - iman Ağam,*
*Hər müşkülə dərman Ağam.*
*İmam Hüseyn nişanəsi,*
*Ey qəribi – dövran, Ağam.*

*Nuri ziyarətə gəldik,*
*Həqqi şəfaətə gəldik.*
*Quluq Əhli – beytə, gəldik,*
*Ey hikməti – zaman, Ağam.*

*Rəsuli cəddinə fəda!*
*Qaməti qəddinə fəda!*
*Ayətul xəttinə fəda!*
*Ey şahi - Xorasan, Ağam.*

*Ülvi yollar Məşhəddəndir ,*
*Cismi təşrif sərhəddəndir.*
*Qəlblər sənlə vəhdətdəndir,*
*Eylə bizə aman, Ağam.*

*Görüşüm dünya gözündə,*
*Duam Ələstu sözündə.*
*Məşhərədək yer üzündə,*
*Ey uğura - liman, Ağam!*

*Salam Məsumeyi Qumdan.*
*Salamlar cəmi, İslamdan*
*Qurtar bizi şərdən, qəmdən,*
*Tək sənədir güman, Ağam.*

*Öz odunda yanır İraq,*
*Kərbəlamla, Məkkəm uzaq.*
*Əmanətim eylər soraq,*
*İsmi –pakı Quran – Ağam!*

*Xudaverdi Firqətində,*
*İntizardır həsrətində.*
*Behişt - kövsər fitrətində,*
*İmami Rzam – ümman Ağam!*

## İBRƏTDOLU HEKAYƏ

# İki çılpağı geydirdi, bir qulu isə azad etdi

Həzrət Peyğəmbəri Əkrəm (s), Həzrət Əlini (ə) ona bir köynək almaq üçün, bazara göndərdi. Hz. Əli (ə) bazara gedib on iki dirhəmə bir köynək alaraq evə qayıtdı.

Rəsulullah (s): -Bu köynəyi neçəyə aldın?-

Həzrət Əli (ə): -On iki dirhəmə.-

Rəsulullah (s):-Bu köynəyi elə də xoşlamıram, bundan daha ucuzunu istəyirəm. Görəsən satıcı bunu geri qaytara bilərmi?

Hz. Əli (ə) belə deyir: Köynəyi götürüb bazara döndüm, Peyğəmbərin istəyini satıcıya çatdırdım, satıcı da qəbul etdi. Pulu götürüb Peyğəmbərin (s) yanına geri qayıtdım. Köynək almaq üçün Rəsulullah (s) ilə birlikdə bazara doğru hərəkət etdik. Yolun yarısında Rəsulullahın (s) gözü, ağlayan bir qulluqçuya sataşdı.



Rəsulullah (s) onun yanına gedib, "Niyə ağlayırsan?"-deyə soruşdu. Nökər cavab olaraq belə dedi: "Ev sahibi mənə dörd dirhəm verdi, bir şeylər almaq üçün məni bazara göndərdi. Lakin mən pulu necə itirdiyimi bilmirəm, indi evə qayıtmağa qorxuram."

Rəsulullah (s) on iki dirhəmdən dörd dirhəmi nökərə verdi və "İstədiyin şeyləri al və evə geri qayıt"-deyə buyurdu.

Rəsulullah (s) Allaha şükr edib, bazara doğru hərəkət etdi, bazardan dörd dirhəmə bir köynək alıb, geyindi. Evə dönərkən, yol üzərində bir çılpaq adam görüb, köynəyi çıxararaq ona verdi. Özü təzədən bazara geri döndü, yenə dörd dirhəmə bir köynək alaraq geyindi və evə doğru hərəkət etdi. Yolun yarısında yenə həmin nökəri kədərli və çaşqın halda gördü. Həzrət: "Niyə evinizə getmədin?"-deyə soruşdu.

Nökər: "Ya Rəsuləllah, gecikmişəm, məni döymələrindən qorxuram"-deyərək cavab verdi.

"Gəl birlikdə gedək, evinizi mənə göstər mən onların səni bağışlamaları üçün vəsilə olaram" -deyən Peyğəmbər (s), o nökər ilə birlikdə yola düşdü. Evlərinə çatdıqları zaman qulluqçu "Budur, bizim evdir"-dedi.

Rəsulullah (s) qapının arxasından yüksək səslə, "Ay ev sahibi! Salamun əleykum"-dedi, bir cavab gəlmədi. İkinci dəfə salam verdi, yenə cavab eşidilmədi. Üçüncü dəfə bir daha salam verdiyində, "Əleykəssəlam ya Rəsuləllah və rəhmətullahi və bərəkatuh"-deyə cavab verdilər.

Rəsulullah (s), "Niyə birinci dəfə cavab vermədiniz? Görəsən, mənim səsimi eşitmədinizmı?"-soruşdu.

Ev sahibi, "Birinci dəfə eşitdik, sənin olduğunu belə başa düşdük"-dediklərində, Rəsulullah (s), "Elə isə niyə gec cavab verdiniz?"-deyə soruşdu.

Ev sahibi, "Sənin səsini bir neçə dəfə eşitmək istədik"-deyərək cavab verdi.

Rəsulullah (s), "Sizin bu qulluqçunuz gecikmişdir, onu cəzalandırmamağınız üçün sizə xahişə gəlmişəm"-deyə sözünü bildirdi.

Ev sahibi, "Ya Rəsuləllah! Sizin mübarək ayağınızın hörmətinə bu qulluqçu indiki andan azaddır"-deyərək cavabında bildirdi. Sonra Rəsulullah (s) öz-özünə belə dedi: "Allaha şükür, necə də bərəkətli on iki dirhəm idi! İki çılpağı geydirdi, bir qulu isə azad etdi. " (Bihar, c.16, s.14)



# AYA SOFYA

***Aya Sofya məbədi (yunan. Αγία Σοφία, türk. Ayasofya) – Türkiyənin İstanbul şəhərində yerləşən, əvvəl provoslav kilsəsi, daha sonra məscid, hal-hazırda isə muzey olan məbəd Bizans dövrünə aid olan Aya Sofya Bizansın "qızıl əsrinin" simvoludur.***

**Ümumi məlumat**

1935-ci ildən indiyə qədər muzey kimi fəaliyyət göstərən Aya Sofya Bizansa şahidlik edib, Osmanlı dövrünün möhtəşəm və tarixi abidələrindən biri olaraq il boyunca bütün ölkələrdən gələn turistlər tərəfindən ziyarət edilir. Zamana meydan oxuyan nəhəng ölçüdə, iqlim şərtləri, zəlzələlər kimi təsirlərlə yaranan aşınmaların günümüzdə çox incə və ehtiyatlı halda aparılan bərpa işləri ilə aradan qaldırılmasına çalışılır.

**Tarixi**

İnşasına 532-ci ildə başlanan Aya Sofyanın tikintisi üçün Efesdəki Diana məbədindən qırmızı porfir sütunlardan səkkiz ədəd gətirilib istifadə olunmuş, dünyanın məşhur mərmər mədənlərindən də bura materiallar daşınmışdır. Xüsusən də Əyriboğaz adasından açıq yaşıl, Əlcəzairdən sarı rəngli, Siqadan çəhrayı, cənub-qərbi Anadoludan ağ qırmızı mərmərlər gətirilərək tikintidə istifadə edilmişdir. Gündə min usta və on min işçinin çalışması ilə 5 il 11 ay 10 günə inşaat başa çatmışdır. Aya Sofya müxtəlif dövrlərdə böyük təhlükələrlə qarşılaşmış, hündürlüyü 55,60 metr, eni 31,36 metr olan dövrün möcüzəsi kimi qiymətləndirilən qübbəsinin genişliyi 1,1 metr olan 40 dirəyə söykənmişdir. Abidənin ağırlığını 40-ı aşağıda, 67-si yuxarıda olmaqla 107 sütun saxlayır, açılan 40 pəncərə onun bol işıq almasına səbəb olur.

**Ümumi mənzərəsi**

Aya Sofya muzeyi Sultanəhməd meydanını dövrəyə alan Sultanəhməd məscidi, Yerəbatan qəsri, Aya İrini kilsəsi, III Əhməd çeşməsi, Soyuq Çeşmə küçəsi arasında yerləşir.

Aya Sofya ətrafında aparılmış qazıntı işləri zamanı tapılmış Bizans sütunlarından nümunələr nümayiş etdirilən baxçadan keçib tikiliyə daxil olanları qapı üzərində görkəmli mozaikalar qarşılayarkən,

sola ayrılan daş döşəməli rampa döngələrlə ziyarətçiləri üstdəki qalereyaya aparır. Üst qatın sol tərəfində irəliləyənlər sərgi bölümünü, Aya Sofya qübbəsindən özülünə doğru ana məkanı seyr etmək imkanı əldə edir və Mustafa İzzət xətti Allah, Həzrət Məhəmməd, Osman, Əbubəkr, Ömər, Həzrət Həsən və Hüseyn lövhələri daha yaxından görünür. Üst qalereya çıxışının sağ tərəfində gəzməyə davam edənlər tavanı bəzənmiş uzun bir dəhlizdə irəliləyərək cənub qalereyasında yerləşən Mərmər Qapıya gəlib çıxırlar. Bu qapı girişinin sağında tavana yaxın bölümdə Deisis mozaikası yer alır. Bu kompozisiyada İsa, Məryəm və Vaftizçi Yəhya ilə birlikdə görülür.

Eyni qalereya ilə irəlilədikcə pəncərəyə yaxın bölümdə 4 xaçlı rəhbəri cərgəsində İstanbula gələn və burada vəfat edən latın mənşəli komandir “Henrikus Dandol”nun məzarı yerləşir. Cənub qalereyasının sonunda rast gəlinən divarda Məryəm, balaca İsa, imperator İoannes və imperatiriça Eirene (12-ci yüz il) mozaikası, şimal qalereyasında imperator İskəndərin mozaikası görülür. Aya Sofya bölmələrində Bizansda ilk dövrə məxsus həndəsə və flora mozaikalarının yerləşdiyi üst qalereyadan enərək əsas sahəyə daxil oluruq.







# HÜCR İBN ƏDİ

Ziyad Kufə valisi kimi ilk dəfə şəhərə daxil olanda olduqca sərt və hədələyici çıxış etdi. Onun ən mübariz müxalifi Hücr ibn Ədi idi. Nə vaxtsa Hücr Ziyadla həmfikir və dost olmuşdu. Amma Ziyad sonradan əməvilərə qoşuldu. O, Hücrü çox yaxşı tanıyırdı və keçmişindən xəbərdar idi. Ziyad əvvəlcə Hücrühüzuruna çağırıb onunla yumşaq danışdı və əlavə etdi: "Muğirə ilə necə rəftar etdiyini bilirəm. O sənin qabağında səbirli olsa da, mən onun kimi deyiləm. Bir zaman Əli (ə) ilə dost, Müaviyə ilə düşmən olduğumu bilirsən. Amma o dövr ötüb keçdi. Bu gün qəlbimdə Əlinin (ə) yerini Müaviyə tutub. Dilini saxla, evində otur, nəyə ehtiyacın olsa, istə. Məbada elə bir iş görəsən ki, əlim qanına batsın."

Bir müddət sonra Ziyad Bəsrəyə getmək qərarına gəldi. Əmru ibn Hərisi yerində oturdub səfərə çıxdı. Hücr və onun yoldaşlarının qiyamından qorxduğu üçün təklif etdi ki, Hücr onunla Bəsrəyə getsin. Hücr bu təklifi qəbul etmədi və dedi: "Xəstəyəm, səninlə gedə bilmərəm." Ziyad dedi: "And olsun Allaha, düz deyirsən ki, xəstəsən. Din xəstəsi, qəlb xəstəsi, ağıl xəstəsi! And olsun Allaha, sənin haqqında pis bir məlumat çatsa, səni öldürəcəyəm! Gör nə edirsən!"

O getdi və Əmru ibn Həris onun taxtında oturdu. Amma Kufənin nəbzi Hücrün və onun yoldaşlarının əlində idi. Onlar valinin istədiyi kimi hərəkət etməsinə yol verməzdilər. Vəziyyəti Ziyada xəbər verdilər və ondan kömək istədilər.

Hücr və dostları Kufə məscidində oturmuşdular və vəziyyətə nəzarət edirdilər. Bir gün Əmru ibn Həris xütbə oxumaq üçün minbərə çıxdıqda onu daşladılar. Çarəsiz qalan Əmru aşağı düşüb qəsrə getdi. O, vəziyyəti Ziyada xəbər verdi və dedi: "Əgər Kufəyə ehtiyacın varsa, bir çarə düşün."

Əhli-beyt tərəfdarları Hücrün yanına get-gəl edir, cəm şəkildə onunla məsciddə olurdular. Bəzən məscidin yarısını onun tərəfdarları tuturdu. İş bir yerə çatdı ki, onlar aşkar şəkildə Müaviyə və Ziyadın ziddinə danışmağa başladılar. Əmru ibn Həris məscidə gəldi. Qəsrlə məscid arasında az məsafə vardı. Şəhər böyükləri də orada idilər. Əmru çıxışa başladı və xalqı itaətə, təfriqədən çəkinməyə çağırdı. Hücr yoldaşları ilə birgə ayağa qalxıb təkbir dedi və ona tərəf hərəkət etdi. Əmru lənətləyərək, onu daşlamağa başladılar. Əmru aşağı düşüb qəsrinə qaçdı və qapını bağlayıb, vəziyyəti ibn Ziyada xəbər verdi. Kufədən gələn xoşagəlməz xəbərlər Ziyadı narahat edirdi. O dedi: "Əgər Hücrün öhdəsindən gələ bilməsəm, Kufəni onun çəngindən çıxarmasam, bir şəxs deyiləm! Vay olsun sənə, ey Hücr! Sənin başına bir oyun gətirim ki, başqalarına ibrət olsun!" Ziyad Kufəyə gedib məsələni həll etmək qərarına gəldi.

Hücr də növbəti hadisələr haqqında düşünüb, hazırlaşırdı. O, canını əldən verməli olsa da, zalımlarla döyüş qərarında idi. Ziyad Kufəyə gəldi və məsciddə hədələyici bir çıxış etdi. Əmruya daş atanları tapıb onların barmaqlarını kəsdi. Hücr isə tutduğu yoldan çəkinmirdi. Bir dəfə Ziyad Müaviyəni "Əmirəlmömininin" adlandıranda bu ləqəbin həzrət Əliyə (ə) aid olduğuna inanan Hücr Müaviyəyə etiraz etdi və dedi: "Yalan deyirsən, belə deyil. "Bu səhnə bir neçə dəfə təkrar olundu. Hücr bir ovuc çınqıl götürüb, Ziyada atdı və onu lənətlədi. Ziyad minbərdən düşdü, namaz qıldı sonra isə qəsrə getdi. Hücr də öz evinə qayıtdı. Ziyad Hücrü həbs etmək üçün süvarilər göndərdi. Hücrlə bu süvarilər arasında döyüş oldu. Hücr nə yolla olur olsun, Ziyadın hüzuruna getmək istəmirdi. Ziyad baş vermiş hadisələr haqqında Müaviyəyə məlumat göndərdi.

Hücrün Kufədə çoxsaylı tərəfdarları və dostları vardı. Bir qrup şəxs Ziyadın göstərişi ilə Hücrün evinə gedib onu yola gətirmək istədi. Onlar təkid etsələr də, Hücr Ziyadın yanına getməkdən imtina etdi.

Bir dəfə Ziyad cümə namazının xütbəsini o qədər uzatdı ki, namazın vaxtı keçdi. Hücr ibn Ədi iki dəfə "Əssəlat, Əssəlat" deyərək, ona namazın vaxtının çatdığını bildirdi. Amma vali buna etina etmədi. Hücr ayağa qalxıb bir qrup adamla namaz qılmağa başladı. Bunu görən Ziyad minbərdən enib namazını qıldı və qəsrinə qayıtdı. O yenə də bu barədə Müaviyəyə namə yazdı. Müaviyə göstəriş verdi ki, Hücr həbs olunub, Şama göndərilsin.

Ziyad məsciddə xütbə oxuduğu vaxt Hücr ibn Ədi ilə yoldaşları məscidin böyük bir hissəsində toplanıb, ona müxalif sözlər danışırdılar. Ziyad kufəliləri və şəhər böyüklərini toplayıb dedi: "Maraqlıdır! Cismləriniz mənimlə, qəlbləriniz isə Hücr ilədir. Bir əlinizlə yaralayır, o biri əlinizlə məlhəm qoyursunuz? Siz mənimləsiniz, amma övladlarınız və qəbilələriniz Hücr ilə? Qalxın gedin və həmin dəstənin arasında olan qardaşlarınızı, övladlarınızı, qohumlarınızı oradan kənarlaşdırın." Ətrafdakılar onun sözünə əməl etdilər. Hücrün başına toplaşanların çoxu onu tərk etdi.

Bəli, Hücr kiçik bir qrupla məsciddə qaldı. Məmurlar Ziyadın yanına aparmaq üçün ona yaxınlaşdılar. Amma Hücr imtina etdi. Savaş məqamı yaranmışdı. Ziyad minbərdən bu səhnəni tamaşa edirdi. Hücrün havadarları onu dövrəyə aldılar və məscidin qapılarından biri ilə bayıra çıxardılar. İki qrup arasında qarşıdurma oldu. Amma Hücr ibn Ədi oradan uzaqlaşıb özünü Əzq qəbiləsinə çatdırdı. Hücr bir gün orada qaldı.

Hücr Ziyadın ondan əl çəkməyəcəyini bildiyindən gizləndi. Onu nə qədər axtardılarsa, da, tapa bilmədilər. Kufə böyüklərindən Ziyadın görüşünə ilkin gələn Məhəmməd ibn Əşəs oldu. Ziyad ondan Hücrü gətirməsini istədi. Məhəmməd onunla Hücr arasında heç bir əlaqə olmadığını bəhanə gətirsə də, Ziyad ona inanmayıb, hədələdi ki, bu işi görməsə, öldürüləcək. Məhəmməd ibn Əşəs qəmgin və nigaran halda bayıra çıxdı. Yolda Cərir ibn Əbdüllahı gördü və ondan kömək istədi. Cərir Ziyadın yanına gedib dedi ki, Məhəmmədlə işin olmasın, Hücr ibn Ədini o özü Ziyadın yanına gətirəcək. Ziyad bu təklifi qəbul etdi. Amma Cəriri hədələdi ki, əgər bu işi görməsə, özü öldürüləcək. Cərir üç gün möhlət istədi. Sonra Hücrün yanına getdi. Hücrün yanında on iki yoldaşı da vardı. Hücr Ziyadın yanına getməyə bir şərtlə razılaşdı ki, Ziyad onu Müaviyənin yanına göndərsin.(Tarixe-ibn Ədim c. İmam Hüseyn, səh. 144) Ziyad Hücrün şərtini qəbul etdikdən son-

***Həzrəti Məhəmməd Peyğəmbərin (s) səhabələrindən və Həzrəti Əlinin (ə) sirdaşlarından biri olan Hücr ibn Ədinin türbəsi darmadağın edilib.***

***Vəhhabi terroristlər son günlərdə səhabə Hücr ibn Ədinin türbəsini dağıtmış cəsədi bilinməyən yerə aparmışlar.***

***Bəqi qəbristanlığını viran edən, İraqdakı müqəddəs məkanları partladan vəhhabilərin Suriyadakı ilk və son işi deyil...***

***Daha əvvəl də Raqqada Əmmar ibn Yasirin türbəsinin qarşısına keçib top atışı ilə "Allahu Əkbər" qışqırıqları arasında yerlə bir etmişdilər.***

***Şamdakı Xanım Zeynəb türbəsinə də hücum olunub və iki dəfə hücum cəhdində partlayışlar törədiblər. Bütün müsəlmanlar tərəfindən müqəddəs hesab edilən bu məkan uzun bir zaman olar ki, bağlıdır. Hicri təqvimilə 51-ci ildə Müaviyənin əmri ilə şəhid edilən Hücr ibn Ədinin qəbri suriyalı terrorçular tərəfindən açılıb.***

***Qəbri açan terrorçular cəsədin çürümədiyini görüncə, onu naməlum yerə aparıblar.***

***Xatırladaq ki, Hücr ibn Ədinin müqəddəs türbəsi Dəməşqin Adra bölgəsində yerləşirdi.***







ra o, Ziyadın yanına getdi. Ziyad çox istəyirdi ki, Hücrü özü öldürsün. Amma aralarındakı şərt bu işə mane oldu. Ziyadın göstərişi ilə Hücr zindana salındı. O on gün zindanda qaldı.

Hücrün yoldaşları da gizlənmişdi. Amma Ziyad Kufənin tanınmış adamlarının köməyi ilə həmin on iki nəfəri ələ keçirib, zindana saldı. Ziyad həbs olunmuş adamları Şama göndərməzdən qabaq onlara qarşı ifadələr topladı. Bu ifadələrə əsasən, Hücr xəlifənin itaətindən çıxmış, xalqdan ayrılmış, xəlifəyə lənət demiş və camaatı müharibəyə çağırmışdı. Həmin ifadələrdə bildirilirdi ki, Hücr xalqı kafir Müaviyəyə itaətsizliyə dəvət etmişdir. Ziyad hazırladığı sənədi Kufə başçılarına məcburən imzalatdırdı. Bəzi adamlar da öz imzaları ilə bu sənədi təsdiq etdilər. Bir müxalifi aradan götürmək üçün yetərincə sübutlar toplandı!

Sənədlər hazırlandıqdan sonra Hücr və onun yoldaşları zindandan çıxarıldı, əl-ayaqları zəncirlənmiş halda, yüz əsgərin müşayiəti ilə Müaviyənin yanına göndərildi. Hücrə qarşı ittihamların təsdiqlənməsi üçün bu dəstəyə bir qrup şahid də əlavə olundu. Ziyad verilən ifadələrə uyğun bir məktubla son qərarı xəlifənin ixtiyarına buraxdı.

Alovlu və qəmləndirici səhnə idi. Xalq zəncirə çəkilmiş azadələrin, buxovlanmış şirlərin ətrafına cəm olmuşdu. Bu anda narahat və ağlar insanların əlindən heç nə gəlmirdi.

Qorxu vardı ki, məhbusların havadarları onların hərəkəti zamanı etiraza əl atalar. Ziyad məhbusları sübhdən axşamadək Kufə məscidinin ərazisində saxladı və gecə yola saldı.

Hücrün qızları ağlar halda onun yolunun üstündə durmuşdular. Hücr ibn Ədi onlara üz tutub dedi: "Sizin yeməyiniz və geyiminiz öhdəsində olan kəs Allahdır. O isə məndən sonra qalır. Təqvalı olun və Allaha sitayiş edin. Əgər öldürülsəm, şəhidəm, geri qayıtsam hörmətim var. Allahın əli başınız üstə olsun." Sonra o, zəncirlərin ağırlığı altda yola düşdü.

Bu karvan ciddi mühafizə altında Şam yoluna üz tutdu. "Qəsre-bəni-məqatil" məntəqəsindən keçərkən həmin məntəqənin sakini olan Übeydullah ibn Hürr Cöfi: "Kaş bu şücaətli insanları xilas etmək üçün kömək olaydı." Übeydullah nida etdi, təəssüfləndi. Onun nidasına cavab verən olmadı.

Hücrün dəstəsi möhkəm imanla irəli gedirdi. Müaviyənin onlarla sərt rəftar edəcəyini, qarşıda şəhadət olduğunu bildikləri halda xoşhal idilər. Onlar sevinirdilər ki, vəzifələrinin icrası, batillə mübarizə yolunda belə bir sınaqla üzləşiblər. Onlar əməvi məmurlarının əl-qolu bağlı əsiri olmalarına baxmayaraq, özlərini kama çatmış, qalib bilirdilər.

**DƏMƏŞQƏ DOĞRU**

Alnında şəhadət çılçırağı parlayan, qəlbində Allahla görüş şövqü alovlanan dəstə məmurların nəzarəti altında, əl-ayağı zəncirli halda Şam hökumətinin paytaxtına üz tutmuşdular. Dəməşqə çatdıqdan sonra Müaviyə onların haqqında hökm verməli idi.

Mərcul-əzra məntəqəsinə çatdılar. Bu məntəqə Dəməşqin iyirmi kilometrliyində yerləşirdi. Müaviyəyə xəbər çatanadək, hökm məlum olanadək əsirlər oradakı zindanda qaldılar. Bəzilərinin fikrincə, əsirlər Dəməşqə aparılmadı və Müaviyə onları görmədən ölüm hökmlərini verdi. Əksəriyyətin isə fikri belədir ki, əsirlər Dəməşqə aparıldı və təkrar Mərcul-əzraya qaytarıldı.

Ziyadın Şama göndərdiyi on iki nəfərin adları belə idi: Hücr ibn Ədi, Şərik ibn Şəddad, Seyfi ibn Fəsil, Qəbisə ibn Zubiə, Möhrəzi ibn Şəhab, Kədam ibn Həyyan, Əbdürrəhman ibn Həssan, Ərçəm ibn Əbdüllah, Kərim ibn Əfif, Asim ibn Ovf, Vərqa ibn Suməyy və Əbdillah ibn Həviyyə.

Ziyad bu on iki nəfərə Utbə ibn Əxnəs və Səd ibn Nəmran adlı iki nəfəri də qoşmuşdu. Onların ümumi sayı 14 idi.

Ziyadın Hücr və onun tərəfdarlarının əleyhinə yazdığı məktub ifadələrlə birlikdə Müaviyəyə çatdı. Müaviyə bu dəstə ilə necə rəftar etmək barədə tərəddüddə idi və onları öldürməkdən ehtiyat edirdi. Çünki Hücr ibn Ədinin parlaq keçmişi vardı, o yetərincə məşhur bir şəxsiyyət idi. Müaviyə əvvəlcə bu şəxsləri öldürmək haqqında məşvərət apardı, başqalarının da bu barədə fikrini öyrənmək istədi. Amma Müaviyənin təbliğatı sayəsində xalq bu adamlara ölüm tələb etdi. Amma bəzi tanınmış adamlar əsirlərin bağışlanmasını məsləhət görürdülər. Bu məsələ barədə susanlar da vardı. Müaviyə zahirən tərəddüddə idi. O, Ziyada məktub yazıb, ikifikirli olduğunu bildirdi.

Ziyad Müaviyəyə cavab məktubunda onun hələ də tərəddüddə olduğuna heyrət etdiyini yazdı. Müaviyənin nəzərinə çatdırdı ki, xalqın şahidlik etdiyi yerdə nə tərəddüd?! Onu da qeyd etdi ki, əgər Kufəyə ehtiyacın varsa, Hücr və onun

tərəfdarlarını bir daha buraya qaytarma.

Ziyadın məktubunu Dəməşqə aparan qasid Mərcul-Əzradan keçərkən məhbuslarla görüşdü və dedi ki, ölüm qoxusu gələn bir məktub aparıram. Məhbuslara təklif etdi ki, əgər faydalı bir sifarişləri varsa, ona desinlər.

Hücr dedi: "Müaviyəyə çatdır ki, biz əhdi pozmamışıq və verilən ifadələri düşmənlər quraşdırmışdır." Qasid bu sözləri Müaviyəyə çatdırdı. Müaviyə dedi: "Bizim nəzərimizdə Ziyad Hücrdən daha doğruçudur!"

Hücr və tərəfdarlarına sonradan qoşulan iki nəfəri Mərcul-əzraya bir az gec çatdırdılar. Onların gəlməsi xəbərini Şama aparan məmur Hücr ilə görüşdü. Əl-ayağı zəncirlənmiş Hücr ona dedi: "Müaviyəyə de ki, bizim qanlarımız haramdır və bizi öldürmək rəva deyil. Biz müsəlmanlardan kimsəni öldürməmişik ki, qisas üçün qanımız axıdıla!"

Müaviyənin öz qərarını açıqladığı məclisdə bəziləri etiraz etdilər və kimlərinsə azad edilməsini istədilər. Müaviyə zindandakılarla dostluğu və ya qohumluğu olan yaxınlarının xahişi ilə onların altısını bağışlayıb azad etdi. Malik ibn Həbirə də xahiş etdi ki, əmisi oğlu Hücr ona xatir bağışlansın. Müaviyə dedi: "O bu dəstənin başçısıdır. Əgər azad etsək, yenidən Kufəyə qayıdıb aranı qatacaq. Onda məcbur olacağıq ki, səni İraqa göndərək və onu yanımıza gətirəsən." Malik bu sözlərdən inciyib məclisi tərk etdi və həmin vaxtdan xanənişin oldu.

**MƏRCUL-ƏZRA ŞƏHADƏTGAHINDA**

Hücr və yoldaşlarının həbsdə saxlandığı Mərcul-əzra məntəqəsi müəyyən cəhətlərdən Hücr ibn Ədi üçün xatirələrə malik əziz bir yer idi. Bu məntəqənin fəthində və İslamın burada yayılmasında Hücr ibn Ədinin rolu vardı. İkinci xəlifənin dövründə bu diyar İslama öz ağuşunu açdı. Hücr qolu bağlı bu yerə gətirildikdə oranın adını soruşdu və sonra dedi: "Mən bu məntəqədə ilk dəfə təkbir demiş və Allahı yad etmiş müsəlmanam. İndi məni qolu bağlı əsir vəziyyətində buraya gətiriblər!"

Olsun ki, Hücr ilə belə rəftar Müaviyənin İslama qarşı küfründən qaynaqlanırdı. Müaviyə heç bir dini dəyərə bağlı deyildi. Bu yerdə onun ilk fatehini həbs etmiş və axırda da oradaca qətlə yetirmişdi. Müaviyənin bu işi bir növ islami dəyərlərə və Hücr ibn Ədinin bu torpağa bağlılığına istehza idi. Bəli, Hücr məhz bu yerdə cihad və fəth etmişdi

Müaviyə Mərcul-əzraya gedib, oradakıları qətlə yetirməyi üç nəfərə tapşırdı. Onlardan biri taygözlü Hudbə ibn Fəyyaz idi. Hücrün zindan yoldaşlarından olan Kərim ibn Əfif Hudbəni gördükdə dedi: "Əgər pis falda bir həqiqət varsa, bizim yarımız öldürüləcək, yarımız isə azad olunacağıq!" İşin sonu Kərimin dediyi kimi oldu.

Həmin üç məmurla birlikdə azad edilməsi nəzərdə tutulan altı nəfəri aparmaq üçün başqa bir şəxs də vardı. Ölümdən qurtulanlar bunlar idi: Asim, Vərqa, Ərqəm, Utbə, Səd və Əbdüllah.

Məmurlar digər məhbuslara dedilər: "Əmr var sizə bildirək ki, əgər Əlidən üz döndərib, ona lənət desəniz, azad ediləcəksiniz. Əks təqdirdə öldürüləcəksiniz." Əsirlər dedilər: "Heç vaxt belə etməyəcəyik." Taygöz məmur Hücrə yaxınlaşıb dedi: "Ey azğın dəstənin başçısı, küfr və özbaşınalıq çeşməsi, ey Əbu-Turabın dostu! Müaviyə səni və yoldaşlarını öldürməyi mənə tapşırıb. Öz küfrünüzdən əl çəkib, Əlidən üz döndərsəniz vəziyyət başqa cür olacaq."

Hücr və yoldaşları bir ağızdan dedilər: "Qılınc itiliyinə səbr etmək bizim üçün sənin dediklərindən asandır. Allahın, Peyğəmbərin, Əlinin görüşünə getmək cəhənnəmə daxil olmaqdan əzizdir."

Məhbuslara dəfələrlə təklif olundu ki, Əmirəlmöminin Əlidən (ə) üz döndərib, canlarını qurtarsınlar. Amma onlar razılaşmayıb, mövlalarına eşq yolunda şəhadəti qəbul etdilər.

Onlar üçün qəbirlər qazıldı, kəfənlər hazırlandı. Hücr dedi: "Bizi kafir kimi öldürür, müsəlman kimi kəfənə bükürlər!"

Məhbusların zəncirləri açıldı. Onlar bütün gecəni namaz qıldılar. Dua və namaz səsləri ətrafı bürümüşdü. Onlar şəhadətlə görüşə hazır idilər. Bu gecə onlar üçün çox xoş oldu.

Sübh açıldı. Onlara son dəfə təklif olundu ki, Əlidən üz döndərsinlər. Əsirlər yenə də uyğun təklifi rədd edərək bildirdilər: "Xeyr, biz onun ardıcılı və aşiqiyik. Onun düşmənləri bizim də düşmənimizdir.

Məmurlar qətli həyata keçirməyə hazır idilər. Həmin məqamda Hücr ibn Ədi bir hədis nəql etdi. Dedi: "Allahın Rəsulu (s) mənə belə buyurmuşdu? "Ey Hücr! Bir gün Əli məhəbbəti yolunda işkəncələrlə öldürüləcəksən. Başın torpağa dəyəndə həmin yerdən bir bulaq qaynayar...

Hücrün yoldaşları öz şəhadətlərini səbirsizliklə gözləyirdilər. Onlar şəhadət şamının başına pərvanə tək dolanırdılar. Bu feyzi dadmağa tələsməyən yox idi. Onlar bir-bir qanlarına qəltan olur, şəhadət işığında əbədilik dastanı yaradırdılar. Nəhayət, növbə Hücrə çatdı.

Udbə ibn Fəyyaza əmr olunmuşdu ki, Hücrün boynunu vursun. Bəzi rəvayətlərə görə, Hücrün oğlu Həmmam da atasının yanında idi. Oğlunun bu tamaşaya şahid olması Hücrü çox nigaran edirdi. O qorxurdu ki, azyaşlı oğlu bu dəhşətli səhnələri görüb, haqq yoldan, Əhli-beyt (ə) məramından uzaqlaşa.

Hücr cəllada dedi: "Əgər oğlumu da öldürmək əmr olunmuşsa, onu məndən qabaq öldür." Cəllad belə də etdi. Ondan bu xahişinin səbəbi soruşulduqda dedi: "Qorxdum ki, qılıncı boynumda görəndə həyəcanlana və Əli (ə) vilayətindən üz döndərə. Bu səbəbdən qiyamət günü Allahın səbr əhlinə vəd etdiyi kimi bir yerdə olmamağımızdan ehtiyat etdim, mənim şəhadətimi görməsini istəmədim."

Hücrün bu hərəkəti Allaha eşq və vilayət yolunda fədakarlığın zirvəsidir. Bu səhnə çox nadir səhnələrdəndir. Seyyid Məhəmməd Bəhrül-ülum qəhrəmanlıq zirvəsi olan bu heyranedici hadisəni təsvir edərək yazır: Hücrün növcavan oğlunun başı atasının gözləri qarşısında yerə diyirləndi. Ata bu üzücü səhnəni seyr edərək, əllərini səmaya açdı, Allahın bu nemətinə şükr etdi. Oğlunun haqq yolda fəda olması, cihad və səbr onun üçün böyük nemətlər idi.

Hücr sevgili şəhid oğlunun yanında oturdu. Onun üzündən torpağı və qanı təmizlədi. Oğlunun alnından qəm dolu bir öpüş götürdü. Sonra şəhid oğluna xitabən dedi: "Allah sənin üzünü ağ etsin, necə ki, peyğəmbərin yanında mənim üzümü ağ etdin."

Bəli, iman möcüzə yaradır, insan bütün bu ruhu əzəmət, batini cilvə, işıqlı və ilahi ruh qarşısında təvazöyə sövq edir. Haqq ardıcılları və Əli dostlarında müşahidə olunan həmin bu ruhiyyə və iman idi. Bu ruhiyyə əməvilərin əhrimən (şər) qüvvəsini lərzəyə gətirdi.

Hücr artıq övladının ruhdan düşməsindən, süstləşməsindən nigaran deyildi. Əqidə yolunda şəhadətin istiqbalı üçün tam hazır idi. Amma son anlarda da öz uca ruhunu Allahın əzəməti astanasında duaya sövq etməyə çalışırdı. Şəhadətdən öncə o iki rəkət namaz qılmaq, son dəfə bəndəliyini izhar etmək üçün möhlət istədi. Məmurlara dedi: "Qoyun dəstəmaz alım."

Ona icazə verildi. Dəstəmaz aldıqdan sonra dedi: "Qoyun iki rəkət namaz da qılım. And olsun Allaha, mən nə vaxt dəstəmaz almışamsa, iki rəkət namaz da qılmışam." Ona iki rəkət namaz qılmaq üçün icazə verildi. Məmurlara elə göründü ki, Hücrün namazı uzun çəkdi. Dedilər: "Namazı nə uzun qıldın. Yoxsa ölümdən qorxursan?" Hücr dedi: "Əgər qorxmuş da olsam, qılıncı sıyırılmış, kəfəni sərilmiş, qəbri qazılmış görməyim yaxşıdır. Amma inanın ki, indiki namaz bu vaxtadək qıldığım namazların ən qısası oldu!" sonra əlavə etdi: "Pərvərdigara, bu ümmətdən dərgahına şikayət edirəm. Kufəlilər bizim ziddimizə şahidlik etdilər, şamlılar bizi qətlə yetirdilər." Sonra üzünü məmurlara tutub dedi: "And olsun Allaha, bizi burada öldürürsünüzsə bilin ki, bu məmləkətdə ilkin tövhid nidası çəkib, elə orada da öldürülən mənəm."

Daha sonra təkid edərək dedi: "Məni bu zəncirlə öldürün, qanımı yumayın. İstəyirəm qiyamətdə Müaviyə ilə bu görkəmdə görüşüm."

Nəhayət, Hücr ibn Ədi həmin taygöz Udbənin qılıncı ilə şəhadətə çatdı. O son anlarda deyirdi: "Həbibim Peyğəmbər (s) belə bir gün haqqında xəbər vermişdi."

Həmin gün Mərcul-Əzra bu altı şəhidin qanına bulaşdı: Hücr, Şərik, Seyfi, Qədisə, Muhrəz, Kədam.

Bəzi mənbələrdə Hücrün özündən qabaq şəhadətə yetirilmiş növcavan oğlu Həmmamın da adı çəkilir.

Şəhidlər üçün cənazə namazı qılındı və onları həmin yerdə torpağa tapşırdılar. Hal-hazırda altı qəbr çərçivəyə salınmış və onun kənarında məscid tikilmişdir.

Hücr ibn Ədi və onun yoldaşlarının məzarı əqidə yolunda cihad, Əhli-beyt sevgisi, Əmirəl-mömininə eşq, fədakarlığa ilhamlanma simvoludur.

Bu insanların şəhadəti hicri 51-ci ilə təsadüf edir. Hücrün qanı bizə bunları öyrədir:

– Sevgi və dostluq yolunda fədakarlıq, qurbanlıq asandır;

– Eşq şəhidləri öz şəhadətləri ilə haqq və izzət yolunu hamarlamışlar;

– Həqiqi müsəlmanlar dini faydaları dünyəvi mənafelərdən üstün tuturlar;

– İman və əqidə yolunda möhkəmlik azadə kişilərin xislətidir;

– Ən böyük cihad zalım hökumətə haqqı deməkdir;

– Batilin dövrü ötəri, haqqın dövrü isə əbədidir.

**ŞƏHADƏT CÜCƏRTİSİ**

Şəhidin pak qanı həm cəlladları ifşa edir, həm də İslam yolu qəhrəmanlarını ilhamlandırır.

Hücr Allahla görüşə tələsdi və ağır cihad yükünü şəhadət sərhəddinə çatdırdı. Müaviyəyə qalan isə əbədi alçaqlıq oldu. Hücrün şəhadətindən sonra saraydakı yaltaqlar Müaviyəni təbrik etdilər ki, Kufədəki düşmənlərin ən qatısı aradan götürülüb. Amma həmin məclisdə Hücrün möhkəmliyindən də danışılır, onun şəhadətdən əvvəlki anları xatırlanırdı.

Müaviyə bu söhbətlərin davamında dedi: "Əgər mənim tərəfdarlarım arasında bir neçə nəfər Hücr kimisi olsaydı, əməvi hökumətini dünyaya hakim edərdim. Heyf! Hücr kimisi varımdırmı? Elə bir insan ki, öz inamı yolunda bütün gücü ilə fədakarlıq göstərsin! "Bir qədər pərişan dayanıb əlavə etdi: "Hücrlə görüşüm çox uzun olacaq!" (Müaviyə ilahi mühakimə gününə işarə edirdi)

Hücrün şəhadətindən sonra Ziyadın göstərişi ilə onun Kufədəki evi viran qoyuldu. Sonra Muxtar Kufədə qiyam qaldırdı. Hücrün həbsində iştirak edən Məhəmməd ibn Əşəsin dalınca adam göndərdi. O qaçmışdı. Muxtarın göstərişi ilə onun evini dağıtdılar. Həmin evin kərpiclərindən Hücrün viran qoyulmuş evi yenidən tikildi.

Hücrün şəhadəti kufəlilərə çox təsir etdi. Kufəlilər nəql edirdilər ki, birinci gördüyümüz zillət Hücrün şəhadəti, Ziyadın dəvəti ilə Əliyə (ə) lənət oxunması və İmam Hüseynin (ə) şəhadəti oldu.

Həmin faciədən sonra bu barədə eşidənlər qəmlənirdilər. Hətta əməvi sarayına bağlı adamlar da öz narahatlıqlarını gizlədə bilmirdi. Ayişə də Hücrün şəhadəti ilə bağlı Müaviyəni tənqid etdi.

Bu hadisəyə etiraz edənlərə Müaviyənin cavabı yox idi. O, Hücrü fitnəkar kimi tanıtdıran Ziyadın verdiyi məlumatları bəhanə gətirirdi.

Müaviyə Həccə gedərkən Mədinəyə gəldi. Ayişə ilə görüşmək istədikdə rədd cavabı aldı. Ayişə iki şeyə etiraz edirdi: Qardaşı Məhəmməd ibn Əbu-Bəkrin və Hücrün öldürülməsi. Amma hiyləgər Müaviyə o qədər üzr istədi ki, Ayişəni razı sala bildi. Ayişə Müaviyəyə Həzrət Peyğəmbərin (s) bu hədisini oxudu: "Mərcul-əzrada elə bir dəstə qətlə yetirilər ki, Allah və göy əhli bu işdən qəzəbə gələr."

Kufəlilər daim Hücrün şəhadətini xatırlayar və bu hadisədən qəmlənərdilər. O vaxt Kufəyə xəbər çatdıqda Kufə böyüklərindən bir hissəsi Mədinəyə İmam Hüseynin xidmətinə getdi və hadisə barədə imama məlumat verildi. Hücrün şəhadət xəbəri İmam Hüseyni (ə) çox narahat etdi. Kufədən gedən qrup bir müddət Mədinədə qalıb, İmamla görüşlər keçirdi. Həmin vaxt Mədinə valisi olan Mərvan ibn Həkəm bu barədə Müaviyəyə xəbər verdi. İmam Hüseynin (ə) görüşlərini imam Həsənlə (ə) bağlanmış müqaviləyə zidd hesab edən Müaviyə İmama məktub yazıb, etirazını bildirdi. Seyyidüş-şühədanın (ə) cavab məktubundan bəzi hissələrə nəzər salaq: "Məgər sən Hücrün və onun pak, abid yoldaşlarının qatili deyilsənmi? Onlar bidətlərlə razılaşmadılar, əmr be məruf və nəhy əz münkər etdilər. Sən isə onları zalımcasına öldürdün. Hansı ki, onlara aman vermişdin. Bu, sənin Allaha qarşı çıxmağının, əhd-peymanı yüngül saymağının nişanəsidir..."

Müaviyə Hücrü qətlə yetirdikdən sonra Məkkəyə gəldiyi il Hüseyn ibn Əli (ə) ilə görüşdü. O, imam Hüseynə (ə) dedi: "Hücr və onun yoldaşları, atanın şiələri (tərəfdarları) ilə necə rəftar edildiyini bildinmi?" İmam (ə) soruşdu: "Nə etdiniz?" Müaviyə istehza ilə dedi: "Onları öldürdük, kəfənə bükdük, cənazə namazı qıldıq və torpağa tapşırdıq." Hüseyn ibn Əli (ə) gülümsəyib, buyurdu: " "Ey Müaviyə! Onlar qiyamət günü səninlə düşmənçiliyə qalxacaqlar. Amma biz sənin tərəfdarlarını öldürsəydik, nə kəfənə bükərdik, nə namaz qılardıq, nə də torpağa tapşırardıq!" (İmam (ə) onların müsəlmanlığını şübhə altına alırdı)

Nəql edirlər ki, Müaviyə Hücrü öldürdüyü üçün sonradan peşiman oldu. Amma bu peşimanlıq faydasızdı. O daim bu faciəni xatırlayardı. Hücr və onun yoldaşlarının qətli ölüm anınadək bir kabus tək Müaviyənin yaxasından yapışıb, onu rahat buraxmadı. Müaviyə və Ziyad ağır əzaba və xalqın nifrətinə tuş gəldilər. Onlar hər ikisi dünyalarını zəlil halda dəyişdilər. Amma Mərcul-əzra şəhidləri əbədiliyə qovuşdu, onların adları eşq və azadlıq kitabının sərlövhəsi oldu!

***Söylə qalib gələn kim?***
***Zəlilliklə ölən kim?***
***Risalət ağuşunda***
***Eşq içində gülən kim?***

# KROSSVORD




## Soldan sağa

1. Müstəhəb namaz.
4. Qabilin qardaşı.
6. Moizə edən, xütbə söyləyən.
7. İnsanın evlənməsi əbədi haram olan şəxslər.
9. Dində olmayan bir hökmü din adına yamamaq.
11. 7-ci imam, 9-cu məsum.
13. Quranda ən böyük surə.
16. Söylənməsi müstəhəb cavabı isə vacib olan söz və eyni zamanda Allahın adlarından biri.
18. Namazın 2-ci rəkətində qiraətdən sonra əllərin içini üzün qarşısında tutaraq zikr və dua oxunan əməl.
20. Dini qanunlara bələd olan hakim.
23. İbadətkar.
24. Quranda kiçik surə.
25. Dini kalendar.
26. Boşanma, evlilik əlaqələrini xüsusi qaydalar üzrə pozmaq.

## Yuxarıdan aşağı

2. Ədalətli.
3. Ucunda 5 barmaq olan bayraq .
5. Məcnunun məşuqu.
6. Ölən adamın malına sahib olan səxs.
8. Peyğəmbərin (s) səhabəsi və İmam Əlinin silahdaşı (ə).
10. Edilməsi haram olmayan, lakin edilməməsi daha yaxşı olan iş.
12. Əksiklik, xarlıq,
14. Müctəhidə təqlid edən, onun sözlərinə baxan.
15. Allah evində dünyaya gəlib Allah evində şəhid olan şəxs.
16. Həzrət Əli və Həzrət Fatimə (s.ə) nəslindən olan şəxs.
17. Fəqir, yoxsul, vəziyyəti fəqirdən də pis olan şəxs.
19. Təmizlik, dəstəmaz, qüsl və ya təyəmmüm üçün insanda hasil olan mənəvi hal.
21. İnsanın bəzi mallardan nisab həddinə yetişincə xüsusi yerlərdə məsrəf edilmək üçün ayırdığı miqdar.
22. Quranda Allahın bir neçə şeyə and içdiyi surə.

# *Allahım, sən mənim istədiyimsən, bəs mən necə?*

***Allahım, Sən Qadirsən, Maliksən, Xaliqsən, Alimsən, Adilsən, Mərhəmətlisən, Əzəmətlisən. Allahım, hər şeyin əvvəli, axırı sənsən, batini, zahiri sənsən. Allahım, Rəzzaq Sənsən, Ğəffar Sənsən, Səttar Sənsən. Razı qalan Sən, razı salan Sən. Allahım, Kamal sənsən, ucalardan uca sənsən, heç bir vəsfə sığmayan Sən.***

***Allahım, mülk sənindir, güc sənindir, elm sənindir, şöhrət sənindir, qüdrət sənindir, xilqət sənindir, mən səninəm. Arzuladığım, istədiyim, qovuşmaq istədiyim sənsən.***

***Allahım, bəs mən necə, sevgini qazana bildimmi?***

***Allahım, sənə bəndə olmalıydım. Hər əmrinə, göstərişinə boyun əyməliydim. Müti, təslim olmalıydım, sözün əsl mənasında sənin qulun olmalıydım. Ola bilmədim amma. Şeytana aldandım, nəfsimə uydum, asi oldum.***

***Allahım, məni yer üzündə özünə xəlifə seçdin. Səni təmsil etməliydim, sənə layiq olmalıydım. Əksi oldu amma. Məni məhv edəcəyinə and içmiş düşmənimlə dost oldum, boynuna sarıldım. Kimi kimlə dəyişdiyimin, nə qədər kiçildiyimin fərqinə varmadan.***

***Allahım, məni xəlq edərkən mələklər "yer üzündə fəsad törədəcək şəxslərmi xəlq edirsən", deyə soruşdular. Sən "mənim bildiyimi siz bilmirsiniz" cavab verdin. Mən isə etimadını doğrulda, mələklərə yanıldıqlarını anlada bilmədim. Hansı fəsadın altında imzamı atmadım? Utanc gətirən hansı işləri görmədim?***

***Allahım, məni məxluqların ən şərəflisi etdin. Bu adın şərəfini qoruya bilmədim amma. Dünya adlı döyüş meydanında rəqibimin fəndinə düşdüm, kürəyimi yerə vurdu. O qədər məni əzdi ki, alçaqların ən alçağı, pislərin ən pisi oldum.***

***Allahım, sevimli, əziz Peyğəmbərini (s) mənə nümunə seçdin. Amma mən ehtiraslarımın alovunda qovrularkən, mərhəmətli elçindən başqa hər yoldan ötəni özümə örnək seçdim. Bir gün meyxanadakı müğənniyə vuruldum, namazxanaya ayağım açılmadı, qulağım vaiz səsi eşitmədi. Başqa bir gün isə əzələlərini nümayiş etdirən idmançı məni cəlb etdi. Amma nəfsimin, ruhumun tərbiyəsinə laqeyd qaldım. Növbəti bir gündə ayağım ədəbi məclislərə açıldı, yazıçıların vurğunu oldum. "Dünya şöhrətli" yazarların əsərlərini vərəq-vərəq, misra-misra diqqətlə oxudum. Quran oxumadım amma. (Bəlkə də yazarının "dünya şöhrətli" olmadığını düşünürmüşəm!)***

***Allahım, təqvalı olmalıydım. Özümü murdardan, leşdən, əyridən, tör-töküntüdən, zibildən, tikandan, daşdan-dərədən qorumalıydım. Amma mən hansı çirkaba bulaşmadım ki? Bədənimin üfunəti səma əhlini belə narahat etməkdədir.***

***Qırmızı işığı keçməməliydim, keçdim. Qadağan olunmuş ərazilərə getməməliydim, getdim. "Oddan təhlükəlidir" yazılmış lövhələri görə-görə odla oynadım.***

***Allahım, şeytan gözümü, bədənimi, qəlbimi zəhərli oxuyla parçalamışdır, zəhərləmişdir. Bu şikəst bədənlə, kül olmuş şəxsiyyətlə, virusa yoluxmuş qəlblə sənə qayıtmağa xəcalət çəkirəm. Xəcalət tərimin, göz yaşlarımın içində boğulmağa məhkum ikən mən həyasızı sənin şəfqətin, mərhəmətin, Sənin Allahlığın ümidli edib. Sənə qayıdıram- sürünə-sürünə, utana-utana. Son arzum, yeganə arzum möminlərin əmiri, müttəqilərin mövlasının diləyidir: "Allahım, sən mənim istədiyimsən, məni də istədiyin kimi et!" Amin!***

# AZAN VAXTLARI

| Tarix | Sübh azanı | Günəş çıxır | Günorta azanı | Günəş batır | Məğrib azanı | Gecə yarısı |
|---|---|---|---|---|---|---|
| 01 | 4:25 | 5:58 | 12:58 | 19:58 | 20:17 | 00:20 |
| 02 | 4:23 | 5:57 | 12:58 | 19:59 | 20:18 | 00:19 |
| 03 | 4:21 | 5:56 | 12:58 | 20:00 | 20:19 | 00:19 |
| 04 | 4:19 | 5:54 | 12:58 | 20:01 | 20:20 | 00:19 |
| 05 | 4:18 | 5:53 | 12:57 | 20:02 | 20:21 | 00:19 |
| 06 | 4:16 | 5:52 | 12:57 | 20:03 | 20:22 | 00:18 |
| 07 | 4:14 | 5:51 | 12:57 | 20:05 | 20:23 | 00:18 |
| 08 | 4:13 | 5:49 | 12:57 | 20:06 | 20:24 | 00:18 |
| 09 | 4:11 | 5:48 | 12:57 | 20:07 | 20:26 | 00:17 |
| 10 | 4:09 | 5:47 | 12:57 | 20:08 | 20:27 | 00:17 |
| 11 | 4:08 | 5:46 | 12:57 | 20:09 | 20:28 | 00:17 |
| 12 | 4:06 | 5:45 | 12:57 | 20:10 | 20:29 | 00:17 |
| 13 | 4:05 | 5:44 | 12:57 | 20:11 | 20:30 | 00:17 |
| 14 | 4:03 | 5:43 | 12:57 | 20:12 | 20:31 | 00:16 |
| 15 | 4:02 | 5:42 | 12:57 | 20:13 | 20:32 | 00:16 |
| 16 | 4:00 | 5:41 | 12:57 | 20:14 | 20:33 | 00:16 |
| 17 | 3:59 | 5:40 | 12:57 | 20:15 | 20:34 | 00:16 |
| 18 | 3:57 | 5:39 | 12:57 | 20:16 | 20:35 | 00:16 |
| 19 | 3:56 | 5:38 | 12:57 | 20:17 | 20:36 | 00:15 |
| 20 | 3:55 | 5:37 | 12:57 | 20:18 | 20:37 | 00:15 |
| 21 | 3:53 | 5:36 | 12:57 | 20:19 | 20:38 | 00:15 |
| 22 | 3:52 | 5:35 | 12:57 | 20:20 | 20:39 | 00:15 |
| 23 | 3:51 | 5:35 | 12:57 | 20:21 | 20:40 | 00:15 |
| 24 | 3:49 | 5:34 | 12:57 | 20:22 | 20:41 | 00:15 |
| 25 | 3:48 | 5:33 | 12:58 | 20:22 | 20:42 | 00:15 |
| 26 | 3:47 | 5:32 | 12:58 | 20:23 | 20:43 | 00:15 |
| 27 | 3:46 | 5:32 | 12:58 | 20:24 | 20:44 | 00:15 |
| 28 | 3:45 | 5:31 | 12:58 | 20:25 | 20:45 | 00:14 |
| 29 | 3:44 | 5:31 | 12:58 | 20:26 | 20:46 | 00:14 |
| 30 | 3:43 | 5:30 | 12:58 | 20:27 | 20:47 | 00:14 |
| 31 | 3:42 | 5:29 | 12:58 | 20:28 | 20:48 | 00:14 |

IMAN.GE
IMANMEDIA.GE
SUALCAVAB.GE
ISLAMMOBILE.BIZ

*Təsisçi: " İman" mədəni maarif mərkəzi*
*Redaktor: Ramin İgidov*

*Məsul katib: Elvin Bayramov*
*Kompüter dizaynı: Nəqi Cəlilxoca*

*Ünvan: Tbilisi, Mçxeta küç.№4*

*Qəzetin səhifələrində Quran ayələri və hədislər dərc olunduğuna görə, pak yerdə saxlanmasını xahiş edirik.*